# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 437 Mart 2024



AYLIQ DƏRGİ

ISSN 2218-2772
khazar-review.khazar.org



# "XƏZƏR"DƏ NOVRUZ ŞƏNLİYİ

## NOWRUZ CELEBRATION AT KHAZAR UNIVERSITY



Martın 19-da Xəzər Universitetində ənənəvi Novruz şənliyi keçirildi. Universitet kollektivi və tələbələrin iştirak etdiyi tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı təbrik nitqi söylədi, bayram münasibətilə arzularını bildirdi, universitet kollektivinə və tələbə heyətinə yeni uğurlar arzuladı.

Xəzər Universitetinin rektoru, Dos. İradə Xəlilova bayram tonqalını yandırdı və Novruz şənliyi başladı. Universitetin müəllimləri-Məhsəti Cabbarova və aşıq Ramil Karayev mahnılar ifa etdilər. Tələbələr böyük çoşqu ilə rəqs etdilər, əyləndilər və növbəti Novruz şənliyi də xoş əhval-ruhiyyə ilə başa çatdı.





On March 19, a traditional Nowruz celebration was held at Khazar University. Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, delivered a congratulatory speech during the event, extending his wishes to the university's staff and students and expressing hopes for their continued success.

The rector of Khazar University, Assoc. Prof. Irada Khalilova, ignited the holiday bonfire and the Nowruz celebration began. Mehsati Jabbarova and ashig Ramil Karayev, vocal teacher of the university, performed songs. Students danced with great enthusiasm, had fun, and the Nowruz festivities concluded on a high note of cheerfulness.



# İÇİNDƏKİLƏR

*Şahin Fazil*. Yol gedirik Gəncəyə... 6
Görkəmli alim, maarifçi, qurucu, Xəzər Universiteti və "Dünya" məktəbinin təsisçisi Prof.Akad. Hamlet İsaxanlının Gəncə ictimaiyyəti ilə görüşü 8
*Qəzənfər Paşayev*. Sadəliyinizə və təvazökarlığınıza heyranlıqla 12
*Anar*. Şair qəlbli maarifçi alim 15
Prof.Akad. Hamlet İsaxanlıya Türkiyədən təbrik məktubu 16
Xalq yazıçısı Anar ilə "Xəzər"də görüş 17
Xəzər Universitetinə 2023-2028-ci illər üçün Akkreditasiya sertifikatı təqdim olundu 20
"1 Mart-Ümumdünya Mülki Müdafiə Günü"nə həsr olunmuş tədbir 22
Varşava Universitetini Şərqi Avropa Tədqiqatları Mərkəzinin məlumat sessiyası 26
*Arif Rüstəmov*. Zəngin təcrübə qazandım 27
Səudiyyə Ərəbistanı Krallığı Təhsil Nazirliyinin nümayəndə heyəti "Xəzər"də 28
Koç Universitetinin nümayəndələri Xəzər Universitetində 30
İqtisadiyyat və menecment fakültəsində tələbələrarası elmi disput 32
Karyera və Məzunlar Mərkəzində görüş 35
"Gələcəyin qonaqpərvərlik liderləri - uğur hekayələri" adlı tədbir 36
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri 38
*Hamlet İsaxanlı*. Şahmat ehtirası 40
"Dubna" həftəlik qəzetində Xəzər Universiteti nümayəndə heyətinin BNTİ-yə işgüzar səfəri barədə məqalə dərc edilib 47
Nəzəri Fizika Elmi - Tədqiqat Mərkəzinin növbəti seminarı 50
"Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişafı" layihəsi çərçivəsində təlim 52
"Xəzər"in tələbəsinin məqaləsi Afrika Jurnalistlər Konqresinin Beynəlxalq Jurnalında 54
"Xəzər"in tələbəsinin birinci müəllifi olduğu "İlhamlı zəfər-20" adlı kitab nəşr edilib 56
Xəzərin tələbəsi "Uğurlu Azərbaycan Tələbələri" ensiklopediyasında 57
Zəncan Tibb Universitetinin professoru Xəzər Universitetində 58
Xəzər Universitetində "Mübariz" filminin təqdimatı 60
"Xəzər"in komandası "Smart Solutions" inkubasiya proqramının qalibidir 62
Tarixçi tələbələr ekskursiyada 64
*Humay Hüseynova*. Hekayələr 66
*Serqey Yesenin*. Şeirlər 70
Molla Xəzər 74

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Məsul katib:**
Valeh Mirzə

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində** mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

*Shahin Fazil*. We are on our way to Ganja... (*in Azerbaijani*)........ 6
Renowned Scholar, Educator, Founder of Khazar University and "Dunya" school Prof. Acad. Hamlet Isakhanli Meets with Ganja Community........ 8
*Gazanfar Pashayev*. Admiring your Simplicity and Humility (*in Azerbaijani*)........ 12
*Anar*. An Illuminated Scholar with a Poet`s Soul (*in Azerbaijani*)........ 15
Congratulation Letter from Türkiye to Prof. Acad.Hamlet Isakhanli........ 16
Meeting with People's Writer Anar at Khazar University........ 17
Khazar University was Awarded Accreditation Certificate Valid for 2023-2028........ 20
Event Dedicated to "March 1 - World Civil Defense Day"........ 22
Information Session of the Centre for East European Studies, University of Warsaw........ 26
*Arif Rustamov*. I Acquired Valuable Experience........ 27
Delegation of the Ministry of Education of the Kingdom of Saudi Arabia at Khazar University........ 28
Koch University Representatives at Khazar University........ 30
School of Economics and Management Hosts Inter-Student Scientific Debate........ 32
Meeting at Career and Alumni Center........ 35
"Future Hospitality Leaders"-Success Stories Meeting of Students........ 36
News of the Institute of ANAS Named After Nizami (*in Azerbaijani*)........ 38
*Hamlet Isakhanli*. Passion for Chess (*in Azerbaijani*)........ 40
Khazar University Delegation's Business Visit to JINR Covered in 'Dubna' Weekly........ 47
Next Seminar of Theoretical Physics Scientific Research Center........ 50
Training within "Developing Research Capacity Through Institutional Repository Network in Azerbaijan" Project........ 52
Khazar University Student's Article Published in International Journal of the Congress of African Journalists........ 54
The Book "Victory with Ilham Aliyev-20", the First Author of Which is Khazar University Student, Published........ 56
Khazar University Student in "Successful Azerbaijan Students" Encyclopedia........ 57
Professor of Zanjan Medical University at Khazar University........ 58
Presentation of the Film "Mubariz" at Khazar University........ 60
Khazar Team is the Winner of 'Smart Solutions' Incubation Program........ 62
Excursion of History Students to the Castles........ 64
*Humay Huseynova*. Short stories (*in Azerbaijani*)........ 66
*Sergei Yesenin*. Poems (*in Azerbaijani*)........ 70
Molla Khazar (*Satirical Musings; in Azerbaijani*)........ 74

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Editorial Secretary:** Valeh Mirza

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



**Şahin Fazil**

# YOL GEDİRİK GƏNCƏYƏ...

*(Sərbəst fikirlərimin sərbəst vəznli şeiri)*

***Bənzərsiz alim Hamlet İsaxanlının şərəfinə Gəncədə təşkil olunası məclisdə iştirak üçün Xalq yazıçısı Anar, Xalq artisti Alim Qasımov, Xalq artisti Ramiz Həsənoğlu, tanınmış professor Asif Rüstəmli, mən və Hamletin özü – 6 nəfər sübh çağı qatarla yola düşdük. Bakı-Gəncə yolu...***

Yol gedirik, Hamletin –
cild-cild kitablar yazan
İsaxanlı Hamletin
Gəncəyə dəvəti var.
Biz də onunla bu gün
Qatarda tutduq qərar.

Yol gedirik...
Dərə, təpə, düz gedirik...
Biz gedirik...
Sağ gedirik...
Sol gedirik...
Yol gedirik...

Yol gedirik...
İstiqamət Gəncə sarı...
Neçə vaxtdır
aparmada yolçuları
yollanan baş Bakı-Gəncə,
qayıdan baş Gəncə-Bakı
xətt qatarı.

Getməliyik Gəncəyə
Dalıram düşüncəyə:
Nizami – Gəncənin oğlu,
Məhsəti – Gəncənin qızı,
Yad etmişik,
Yad edirik bu gün yenə
belə demək cayiz isə
dahi olan
Azərbaycan fəxri olan
oğlumuzu, qızımızı.

Yol gedirik...
Düşünürəm bir daha:
Gəncə adlı məkanda
Gəncə qalası vardı,
dağıdılıb, talanıb...
Qala qapısı vardı,
Gəncədən oğurlanıb...

Qapımıza çıxma şərik,
Ey Gelati monastırı,
Gərək olsa
qalamızı biz tikərik,
sənsə
qaytar qapımızı!

Dalıram düşüncəyə:
Tarix deyir "Danış, din!
Qapı ustası vardı
Osmanoğlu İbrahim...
Gəncə cümə məscidi...
Səddadi şahı Şavur,

Gəncə padşahı Şavur...
Gəncədə xanlıq və qan –
Ziyadoğlu nəslindən
Birinci Şahverdi xan...”
Dalıram düşüncəyə:
Kaxetiya hakimi
İkinci İraklinin
neçə-neçə basqını –
Gəncəyə hücum ili...
“Hücum” deyə çığırdı
topların, tüfənglərin,
oxların hücum dili,
“İrəliyə cum” dili.

Dalıram düşüncəyə:
Cavad xan və general
Sisianov müşkili –
Xanın öldürülməsi...
Rusiyaya birləşmə...
Dövr zor dövrü idi,
Hünərin var– birləşmə.

Bizim dədə-babalar
Bir gün göz açıb gördü:
Gəncə – Yelizavetpol,
Gəncə – Kirovabaddır...
Əvəz etdi il ili...
Ölkəmin vətəndaşı
başqa günsə gördü ki,
Rədd elədi nisgili
Fələyin məhək daşı.

Ey müxənnəs, ey yağı,
Ölkəmə olan həyan,
Hər dəm bizi qoruyan,
Gəncəmizi qoruyan
Zəfərli ordunu gör,
Müzəffər rəhbərə bax –
Bu gün
Gəncə Gəncədir!
Sabah da, başqa gün də
Gəncə Gəncə olacaq!!!

İndisə yol gedirik,
bəli, bir şəxsiyyətlə
Gəncəmizdə görüş var –
yaradıcı insanın
yaradıcı gecəsi.
Bir də dinləyəcəyik
o doğma,
o mehriban,
təvazökar bir kəsi.
Yol gedirik...

Şahin Fazil, sabahkı
tədbirin cəzbinə bax –
12 cild kitab yazan
çox ölkəni adlayan
Qəzənfər Paşayev də
bu gün gəlib çıxacaq.
“Xəzər”in canyandıran
dəyərli əməkdaşı,
yoldaşların yoldaşı,
sirdaşların sirdaşı,
işi ilə əməli
düz mütənasib olan
Əmirbəyli Əlövsət
Türkiyədən gəlməli...
Bu gün gəlib çıxacaq.

Sabahkı gün mübarək –
Sayımız çoxalacaq.
Sayımız çoxaldıqca
Həzzimiz çox olacaq.
Fərqanə Alimqızı,
Azər, İlqar, Sərdarsa
Sabah gəlib çıxacaq.

“Xəzər”də neçə-neçə
tədbiri tənzimləyən
Aparıcı Afaqsa
artıq gözləyir bizi,
aparacaq yenə də
yeni tədbirimizi.

Yol gedirik, Hamletin –
cild-cild əsərlər yazan
Hamlet İsaxanlının
Gəncəyə dəvəti var.
Biz də bu gün onunla
Qatarda tutduq qərar...
Yol getmirik. Yol bitdi.
Yetişdik!!!

*29.02.2024*



# GÖRKƏMLİ ALİM, MAARİFÇİ, QURUCU, XƏZƏR UNİVERSİTETİ VƏ "DÜNYA" MƏKTƏBİNİN TƏSİSÇİSİ PROF.AKAD. HAMLET İSAXANLININ GƏNCƏ İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞÜ

# RENOWNED SCHOLAR, EDUCATOR, FOUNDER OF KHAZAR UNIVERSITY AND "DUNYA" SCHOOL PROF. ACAD. HAMLET ISAKHANLI MEETS WITH GANJA COMMUNITY

Mart ayının 1-də Gəncə Dövlət Filarmoniyasında təşkil olunan görüşdə Hamlet İsaxanlının ömür yolu, yaradıcılığı ilə bağlı bir çox məqamlara toxunuldu, xoş, yaddaqalan anlar yaşanıldı. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin müavini Adil Tağıyev, ölkənin tanınmış ziyalıları, elm və sənət adamları, şair, yazıçı və ədəbiyyatşünaslar-Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, professor Qəzənfər Paşayev, tanınmış ustad-sənətkar, rejissor Ramiz Həsənoğlu, tarixçi-professor, şair Şahin Fazil, professor Asif Rüstəmli, Üzeyir Hacıbəyli muzeyinin direktoru, bəstəkar, Xalq artisti

At the meeting held at the Ganja State Philharmonic on March 1, 2024, many points related to Hamlet Isakhanli's life path and creativity were touched upon, pleasant and memorable moments were experienced. At the event, Adil Taghiyev, the deputy of Ganja City Executive Authority, the country's well-known intellectuals, scientists and artists, poets and writers, literary critics, Chairman of the Azerbaijan Writers' Union, People's Writer Anar, professor Gazanfar Pashayev, well-known master-artist, director Ramiz Hasanoghlu, historian-professor, poet Sahin Fazil,






*"Xan bağı"nda Xalq şairi Nigar Rəfibəylinin abidəsi önündə: Hamlet İsaxanlı, Anar, Qəzənfər Paşayev, Şahin Fazil, Ramiz Həsənoğlu,*

Sərdar Fərəcov, Xalq artistləri - Alim Qasımov, Azər Zeynalov, İlqar Muradov, Əməkdar artistlər - Fərqanə Qasımova, İlahə Əfəndiyeva, Ramil Qasımov və digərləri iştirak edirdilər. Müğənnilər Hamlet İsaxanlının şeirlərinə həm özünün həyat yoldaşı Nailəxanım



*Asif Rüstəmli*

İsayeva, həm də müxtəlif tanınmış bəstəkarlar tərəfindən yazılan mahnıları ifa etdilər. Vokalçıları Xəzər Universitetinin Kamera orkestri (bədii rəhbər Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) müşayiət edirdi.

*(Ardı səh.10-da)*



*Adil Tağıyev*

professor Asif Rustamli, Director of Uzeyir Hajibeyli Museum, composer, People's Artist Sardar Farajov, People's Artists - Alim Gasimov, Azer Zeynalov, Ilgar Muradov, Honored Artists - Fargana Gasimova, Ilaha Efendiyeva, Ramil Gasimov and others were participating.

On the stage of the Philharmonic, the performance of the anthem of the "Dunya" School, with lyrics by Hamlet Isakhanli and music by Nailekhanim Isayeva, was specially applauded by the audience. Also, dances set to songs by Khazar University dance ensemble

*(To be continued page 10)*

Filarmoniyanın səhnəsində Gəncə "Dünya" məktəbinin şagirdləri tərəfindən sözləri Hamlet İsaxanlının və musiqisi Nailəxanım İsayevanın olan "Dünya" məktəbinin himn-mahnısının ifası tamaşaçılar tərəfindən xüsusi olaraq alqışlandı. Eləcə də, Xəzər Universiteti rəqs ansamblı və Gəncənin "Xəmsə" uşaq və rəqs ansamblının mahnılara qurulan rəqsləri qonaqlarda xoş ovqat yaratdı.



*Alim Qasımov*

Görüşdə Bakıdan gedən ziyalılar çıxışlarında professor Hamlet İsaxanlının ömür yolu, həyat və fəaliyyəti, yaradıcılığı, Xəzər Universiteti və "Dünya" məktəbi haqqında geniş söz açaraq, alimi maarifçilik tariximizin yeni əsrdəki davamçısı adlandırmaqla bərabər gördüyü işlərdə onunla hər zaman yan-yana dayanan ömür-gün yoldaşı Nailəxanım İsayevanın da xatirəsini hörmətlə andılar.

and Ganja "Khamsa" children's and dance ensemble created a pleasant atmosphere among the guests.

Intellectuals from Baku delivered speeches at the gathering, highlighting Hamlet Isakhanli's life journey, creativity, and contributions to Khazar University and the "Dunya" School. They also paid tribute to Nailekhanim Isayeva, Isakhanli's lifelong friend and collaborator, praising him as a torchbearer of



*Sərdar Fərəcov*

enlightenment in the new century.

On that day, Ganja State Philharmonic was attended by officials of Ganja, Goygol, Shamkir, Samukh executive authorities, Employees of the Consulate General of Turkey in Ganja, professors and teaching staff of Ganja universities, Ganja Writers' Union,



*Fərqanə Qasımova*



*Məhsəti Cabbarova*



*İlqar Muradov*

Həmin gün Gəncə Dövlət Filarmoniyasında Gəncə, Göygöl, Şəmkir, Samux icra hakimiyyətlərinin məsul şəxsləri, Türkiyənin Gəncədəki Baş Konsulluğu, Gəncə universitetlərinin professor və müəllim heyəti, Gəncə Yazıçılar Birliyi, Gəncə - Daşkəsən Mədəniyyət İdarəsi, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi və Qazax-Tovuz Regional Təhsil İdarəsinin əməkdaşları, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının tibb işçiləri, Gəncə qəzetlərinin müxbir və yazar heyəti, Gəncə ziyalıları və təhsil işçiləri, eyni zamanda tanınmış sənət adamları və digərləri iştirak edirdilər.

Rəsmi görüşdən sonra davam edən və aşıq, müğənni, xanəndələrin rəngarəng ifaları və rəqsləri ilə keçən məclis də çox maraqlı oldu.

Ganja-Dashkasan Cultural Department, Ganja-Dashkasan Regional Education Department and Gazakh-Tovuz Regional Education Department, medical staff of Ganja City United Hospital, correspondents and writers of Ganja newspapers. , Ganja intellectuals and educators, as well as well-known artists and others. The party, which continued after the official meeting and was full of colorful performances and dances by ashiqs, singers, was also very interesting.



*Azər Zeynalov*





**Qəzənfər Paşayev**

# SADƏLİYİNİZƏ VƏ TƏVAZÖKARLIĞINIZA HEYRANLIQLA

*GÖRKƏMLİ ALİM, PROFESSOR HAMLET İSAXANLIYA MƏKTUB*

Hörmətli Hamlet müəllim,

Qədim Gəncənin möhtəşəm Dövlət Filarmoniyasında dahi Nizaminin, Məhsəti Gəncəvinin, Xalq şairi Nigar Rəfibəylinin, akademik Həmid Araslının, professor Mir Cəlal Paşayevin, Xalq yazıçısı Anarın ana vətənində yaradıcılığınıza və ad gününüzə həsr olunmuş qeyri-adi ədəbi-bədii gecədə iştirak etmək qürur doğururdu.

Gəncə sanki bayram içində idi. Gəncəlilər yaxınlaşıb Bakıdan gələn qonaqları: Xalq yazıçısı Anarı, professorlar Asif Rüstəmlini, Şahin Fazil Fərzəlibəylini, Xalq artistləri Alim Qasımovu, Azər Zeynalovu, İlqar Muradovu, bəstəkar Sərdar Fərəcovu, tanınmış rejissor Ramiz Həsənoğlu və başqalarını sevinclə salamlayır, kef-əhval tuturdular.

Xan bağında Xalq şairi Nigar Rəfibəylinin abidəsini ziyarət edəndə də, "Dünya" məktəbinin dünya standartlarına cavab verən filialına baş çəkəndə də belə oldu. Qürur duyuram ki, 12 cilddən ibarət "Seçilmiş əsərlər"im bu nümunəvi təhsil ocağının kitabxanasında yer aldı.

Möhtəşəm ədəbi-bədii gecədə çıxış etmək, qədirşünaslıq əlaməti olaraq haqqınızda söz demək mənə də qismət oldu.

Yaradıcı adamlar yaxşı bilir, elə insan var ki, haqqında danışanda ona layiq sözləri diqqətlə seçir, ifrata varmaqdan, dinləyicilərin qınağına tuş gəlməkdən çəkinirsən.

Elə şəxsiyyətlər də var, haqqında ən mötəbər sözləri deməkdən belə çəkinmirsən. Bilirsən ki, verilən qiymət onlara ana südü kimi halaldır. Siz belələrindənsiniz.

Deyirlər ki, kamil insan olmaq üçün şəriət, təriqət, mərifət, həqiqət adlanan dörd mərhələni keçmək vacibdir.

Sizin hansı mərhələni fəth etdiyinizi bilmirəm. Məlum olan odur ki, siz zəngin ensiklopedik bilik sahibisiniz. Elm fədaisisiniz, fenomensiniz.

Hamlet müəllim, Sizinlə təmasda olanda sadəliyinizə, təvazökarlığınıza heyran olmamaq olmur. Qənaətim budur: Sadəlik də səhhət kimi bir ilahi töhfədir. Sizin bəsitlikdən uzaq, dahiyanə sadəliyinizi, təvazökarlığınızı yalnız həmkarınız, professor Hafiz Paşayevlə müqayisə etmək olar. Hər ikinizlə söhbət etmək yaxşı bir kitab oxumağa bərabərdir. Lakin sizi fərqləndirən bir

cəhət də var. Siz şairsiniz. Sizin görkəmli riyaziyyatçı alim kimi yetişməyinizə şairliyiniz təkan verib. Sizdən eşitmişəm: riyaziyyat özü də poeziya kimi ilhamla bağlıdır. Albert Eynşteyn təsadüfi yazmamışdır: "Poeziya ruhu daşımadan əsl riyaziyyatçı olmaq mümkün deyil".

Hamlet müəllim, Xalq yazıçısı Anardan eşitmişəm: Vaxt və baxt insanın taleyində və inkişafında böyük rol oynayır. Sizin təhsil aldığınız vaxtlarda təhsilə və elmə böyük istək, mən deyərdim hərislik vardı. Orta məktəbi qızıl medalla, elm və təhsil məbədi ADU-nu fərqlənmə diplomu ilə bitiribsiniz. Fitri istedadınız sayəsində riyaziyyat elmi üzrə Azərbaycan hüdudlarını yararaq beynəlxalq aləmə çıxıbsınız. Xarici ölkə elm ocaqlarında tədqiqat aparıbsınız, dərs deyibsiniz. O ki qaldı Anar müəllimin dediyi baxt məsələsinə, bu sahədə də tale üzünüzə gülüb.

Bundan əlavə, xarici ölkələrdə elm ocaqlarında tədqiqat aparmaq imkanı yaranmışdı.

Bəxtiniz gətirib ki, Nailəxanım kimi nəcib bir xanımla ulduzunuz barışıb.

Ömür-gün yoldaşınız Nailəxanımla möhtəşəm bir iş görübsünüz. Nəhəng Xəzər Universitetini, "Dünya" məktəbini yaradıbsınız. Nailəxanım sizə qol-qanad verib, arxa olub. Türklərin kəlamı var: "Qadın kişini vəzir də edər, rəzil də".

Nailəxanım layiq olduğunuz mərtəbəyə yüksəlməkdə sizə dayaq olub. İndi Siz Anar müəllimin haqlı olaraq dediyi kimi, Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev kimi şəxsiyyətlərin gördüyü misilsiz maarifçilik işini uğurla davam etdirmək gücündəsiniz.

Hamlet müəllim, Nailəxanımla birgə yazıçı və şairlərə, elm adamlarına, ziyalılara həsr etdiyiniz ədəbi-bədii gecələr toy-bayrama çevrilirdi. Burada Nailəxanımın mükəmməl musiqi təhsili, bəstəkarlığı böyük rol oynayırdı. Təkcə Sizin sözlərinizə Nailəxanım 8 mahnı bəstələyib. Onun mahnılarını görkəmli müğənnilərimiz oxuyub və oxuyurlar. Yaxşı yadımdadır, 2009-cu il dekabrın 28-də mənə həsr olunmuş ədəbi-bədii gecə 3 saat davam etdi. Sanki bir an kimi keçdi. Müğənnilər Nuriyə Hüseynova, Zakir Əliyev, Almaz Orucova, Aşıqlardan Gülarə və Fəzail Miskinli, kamança çalan Munis iştirak etdilər. Təəssüf ki, o gecənin təşkilatçıları Nailəxanım və Bəhlul Abdulla, eləcə də qardaşım qızı Qənirə Paşayeva, Nahid Hacızadə, Əlibala Hacızadə, İlyas Tapdıq, Hacı Mirəziz, Həsən Mirzəyev, Tale Həmid, Maarif Teymur, Vaqif Arzumanlı, yeznəm Əsgər Kərimov və başqaları sıralarımızı vaxtsız tərk etdilər.

Lakin görülən iş unudulmur. Nə yaxşı ki, ənənəni davam etdirirsiniz. Nailəxanımla birgə yaratdığınız "Elm və Sənət Məclisi" bir aləmdir. Nailəxanım bütün təşkilatçılıq işini boynuna götürürdü. Siz isə yalnız məclisi aparırdınız. Nə gizlədim, məclisdə çıxışlarınızdan, televiziyada "Ustad dərsləri"nizdən pay götürüb, zənginləşməmək mümkün deyildi.

Onu da deyim ki, Nailəxanım elə əhval-ruhiyyə yaratmışdı ki, hamı "Elm və Sənət Məclisi"nin yığıncaqlarına həvəslə gəlirdi.

Nailəxanım, sanki, əlində fanar uğurlarınıza işıq tuturdu. Bu, mənim yadıma ilk avtomobil düzəldən amerikalı mühəndisin sözlərini salır. O, maşın düzəldəndə yoldaşı həmişə yanında olub. Gecələr o, fanar tutar, əri işləyərmiş. Bir gün qonşular görür ki, gecələr yuxularına haram qatan qonşularının qarajından özü yeriyən araba çıxdı. Sonralar onun necə şöhrətləndiyini təsəvvür etmək çətin deyil. Bir gün ondan müsahibə götürəndə soruşurlar: "Yenidən dünyaya gəlsəniz, hansı sənəti seçərdiniz". Cavab düşündürücü olur: "Fərq etməz, təki yoldaşım yanımda olsun!"

İnanıram ki, Nailəxanımlı günlərdə belə bir sual Sizə yönəldilsəydi, Siz də belə bir cavab verərdiniz. Çünki nəcib ziyalı, örnək şəxsiyyətsiniz. Nə edəsən ki, həyatın dözülməz imtahanına dözmək Sizə də qismət oldu.

Hamlet müəllim, vəfalı kişilər sevimli həyat yoldaşlarını vaxtsız itirəndə onların adını əbədiləşdirmək üçün kimi Tac Mahal ucaldır, kimi məscid tikdirir, kimi Fəxri xiyabanda halalca yeri olduğu halda, adi qəbiristanlıqda həyat yoldaşının yanında dəfn olunmağı vəsiyyət edir (Məsələn, həmkarınız akademik Bəhram Əsgərov), kimi adına bulaq düzəltdirir, kimi su kanalı

çəkdirir, yollar saldırır, dəli-dolu axan çayların üstündən körpülər saldırır.

Siz burada da fərqlənibsiniz. Nailəxanımı vaxtsız itirəndən sonra evə başqa qadın gətirib onun ruhunu incitmədiniz, övladlarınızın qəlbinə xal salmadınız. Təkcə bununla kifayətlənmədiniz. Nailəxanımın adını əbədiləşdirmək üçün "Dünya" məktəbində adına muzey düzəltdirdiniz. Nailəxanımın adını daşıyan "Dünya" məktəbində Xalq şairi Nigar Rəfibəylinin 110 illiyinə həsr olunmuş qeyri-adi ədəbi-bədii tədbirdən sonra həyat yoldaşım və professor Telman Vəlixanlı ilə muzeyə getdik. Təəssüratımız çox böyük oldu. Xatirə dəftərində fikirlərimizi bölüşdük. Bütöv bir divanı xalqın həyatında müstəsna xidmətlər göstərmiş, dünyasını dəyişmiş azərbaycanlı qadınların portretləri bəzəyirdi.

Nailəxanımın arzusunu yerinə yetirərək "Tarixdə iz salan, Azərbaycan mədəniyyətinə töhfə verən qadınlar" silsiləsindən onlara həsr olunmuş portret kitablar hazırlayıb çap etdirirsiniz.

Gələcəyin gözü ilə baxanda aydınca görmək olur ki, Azərbaycan mədəniyyətinə zəngin bir səhifəni ortaya qoyubsunuz.

O da diqqətəşayandır ki, Nailəxanımın əmanət qoyub getdiyi Xəzər Universiteti və "Dünya" məktəbini inkişaf etdirirsiniz. Xəzər Universiteti deyəndə nədənsə göz önünə Ulu öndərin dostu, iraqlı soydaşlarımızın dünya şöhrətli alimi və pedaqoqu İhsan Doğramacının Bilkənd Universiteti gəlir. Bu iki özəl universiteti fərqləndirən bir cəhəti xüsusi vurğulamaq istəyirəm. Bu universitetlərdə təhsilə xaricdən mütəxəssislər dəvət etməyə, təhsili yeniləməyə vəsait əsirgəmirlər. Odur ki, ad-san, uğur qazanıblar.

Hamlet müəllim, Oğuznamələrin birində ibrətamiz bir hadisə ilə rastlaşmışam. "Uzun həsrətdən sonra padşahın oğlu olur. Toy qurulur. Qorqud Ata uşağın adını Duman qoyur. Bir ay gecə və gündüz yaxşılar da, pislər də şənlənirlər. Qocalar öz yaşlarını, yoxsullar yoxsulluqlarını, varlılar ölümü unudurlar".

Siz o qədər diqqətlisiniz ki, heç nəyi unutmursunuz. Siz professor Camal Mustafayev kimi neçə-neçə saf, pak elm adamlarına, imkansızlara qayğı göstəribsiniz. Bu işi bu gün də davam etdirirsiniz.

İnanıram ki, imkansız adamları illərlə həsrətində olduğu Həcc ziyarətinə də göndərəcəksiniz.

Hamlet müəllim, Sizdən eşitmişəm, Moskvada çox görkəmli riyaziyyatçı alimin 80 yaşını təntənə ilə qeyd edirlərmiş. Gənc alimlərdən biri ona 100 yaş arzulayır. Alim yarıgerçək, yarızarafat riyaziyyatçı dili ilə deyir: "Sizə kim səlahiyyət verib, mənim yuxarı yaş həddimi təyin edəsiniz?"

Siz riyaziyyatçısınız, ona görə Sizə yuxarı yaş həddi qoymaq fikrindən uzağam. Odur ki, səmimi qəlbdən arzu edirəm ki, qalan ömür payını da gümrah, sağlam yaşayasınız.

*01.03.2024-cü il*
**Gəncə şəhəri**

*"525-ci qəzet"*
*07.03.2024*

***https://525.az/news/254935-sadeliyinize-ve-tevazokarliginiza-heyranliqla-qezenfer-pasayev-yazir***

*"Ədəbiyyat qəzeti"*
*08. 04. 2024*

***https://edebiyyatqazeti.az/news/diger/11475-sair-qelbli-maarifci-alim***

ANAR

# ŞAİR QƏLBLİ MAARİFÇİ ALİM



Azərbaycanın qeyrət və əyilməzlik rəmzi qədim Gəncədə, Rəfibəyli babalarımın, anamın şəhərində yeni inşa olunmuş möhtəşəm Filarmoniyada görkəmli alim, maarifçi Hamlet İsaxanlının yubiley tədbiri keçirildi. Bu unudulmaz gecədə mən də iştirak edirdim.

Müasir mənada maarifçilik hərəkatı Azərbaycanda XIX əsrdə başlamışdır.

Dilçiliyimizin əsasını qoyan Mirzə Kazım bəy, ilk çağdaş tarixçimiz Abbasqulu ağa Bakıxanov, dramaturgiyamızın, ədəbi tənqidimizin banisi Mirzə Fətəli Axundzadə, Rusiyada ilk türk-müsəlman qəzetini nəşr edən və milli teatrımızı yaradanlardan Həsən bəy Zərdabinin işini XX əsrdə maarif sahəsində Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Məmməd Tağı Sidqi, Soltan Məcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Abdulla Şaiq, Süleyman Sani Axundov, Bədəl bəy Bədəlbəyli və başqaları davam etdirmişlər. Sovet dövründə maarif işi bütünlüklə dövlətin inhisarında idi. Müstəqillik illərində ayrı-ayrı ziyalıların, iş adamlarının bu sahədə şəxsi təşəbbüslərinə imkan yarandı. Özəl universitetlər, məktəblər meydana çıxdı. Bu sahədə ilklərdən və ən uğurlulardan biri Hamlet İsaxanlı oldu. Bakıda Xəzər Universitetini və "Dünya" məktəbini, elə Gəncədə də "Dünya" məktəbini yaradan Hamlet müəllim bu maarif ocaqlarını çoxsahəli biliklər məkanına çevirməyi bacardı. Üç dildə mükəmməl təhsil alanlar eyni zamanda musiqi, rəssamlıq, idmanla da qovuşurlar. Xəzər Universitetinin öz simvonik orkestri, rəqs ansamblı var.

Hamlet İsaxanlı görkəmli riyaziyyatçı alim olmaqla bərabər tarix, fəlsəfə, ədəbiyyat sahəsində geniş erudisiyaya malik olan nadir ziyalılarındandır. Həm də zəngin biliklərini müxtəlif dillərdə yazdığı məqalələri, kitabları, dünyanın çeşidli ölkələrində çıxışlarıyla insanlara çatdırır.

Ağzınacan dolmuş Gəncə filarmoniyasında Hamlet müəllimin 75 illiyiylə bağlı tədbirdə Bakıdan gəlmiş qonaqlar çıxış etdilər, yubilyarın şeirləri və sözlərinə bəstələnmiş mahnılar tanınmış müğənnilərin ifasında səsləndi. Şeirlərinə müxtəlif bəstəkarlar mahnılar yazmışlar. Amma ən təsirli mahnıların musiqisini Hamlet müəllimin ömür-gün yoldaşı, mərhum Nailəxanım bəstələmişdir, Hamlet müəllimin dünyadan erkən getmiş Nailəxanımın xatirəsinə münasibəti çağdaş dövrümüzün məhəbbət və vəfa dastanı adlana bilər...

Gəncə tamaşaçılarının hədsiz sevincinə səbəb olan bu tədbirdə mən də Hamlet müəllimi özümçün bir şair kimi kəşf etdim. Yazıçılar Birliyinin üzvü olan Hamlet İsaxanlının şeir yazdığını əlbəttə bilirdim. Amma nə gizlədim, alimlərin şeir yazmalarına bir qədər şübhəylə yanaşıram. O gecə konkret olaraq Hamlet müəllimin istedadlı şair olmağına şübhələrim dağıldı. Bunu onun özünə də dedim. Hətta alimlərin şairliyinə şübhəylə yanaşdığımı da gizlətmədim. Hamlet müəllim:

- Axı mən həyatımı alim kimi yox, şair kimi başlamışam - dedi. Alim sonralar oldum.

Ədəbi və elmi yaradıcılığında, yorulmaz maarifçilik fəaliyyətində Hamlet İsaxanlıya yeni-yeni uğurlar diləyirəm.

*2 mart 2024*

**"Ədəbiyyat qəzeti"**

*08. 04. 2024*

*https://edebiyyatqazeti.az/news/diger/11475-sair-qelbli-maarifci-alim*



Yavuz Akpınar

# PROF.AKAD. HAMLET İSAXANLIYA TÜRKİYƏDƏN TƏBRİK MƏKTUBU

# CONGRATULATION LETTER FROM TÜRKIYE TO PROF. ACAD.HAMLET ISAKHANLI

*Türk yazıçısı, şairi və alimi, Türkiyənin Ege Universitetinin Ədəbiyyat fakültəsinin professoru, Türkiyə Yazarlar Birliyi, Türk Mədəniyyəti Araşdırma İnstitutu və Azərbaycan Yazıçılar Birliyinin üzvü Yavuz Akpınar Xəzər Universiteti və "Dünya" məktəblərinin qurucusu və rəhbəri Prof.Akad. Hamlet İsaxanlıya təbrik məktubu göndərmişdir.*

**Muhterem Hamlet Müellim,**

Bugün edebiyyat gazetini oxuyarken sizin 76'ıncı yaş günümüzün Gence'de zatınıza layık törenlerle kutlandığını öğrendim. Bu münasebetle sizi yürekten tebrik eder, Allah'tan size uzun ömür, işlerinizde nice nice başarılar dilerim. Siz benim hayatımda tanıdığım en necip insanlardan birisiniz. Sizinnezaketiniz, etrafınızdakiinsanlara, tanışlarınıza gösterdiğiniz samimi alaka-kaygı, milli meselelerdeki dikkat ve hassasiyetiniz, insanlık problemlerine insanca bakışınız beni son derecede etkilemişti. Sadece kurucusu olduğunuz Xezer Üniversitesi'nin başarıları, ilim alemine hediyeleri, Azerbaycan'ın sizin gibi mesuliyet taşıyan, vatana gerçek anlamda fiilen hizmet eden bir aydınla iftixar etmesi için yeterlidir. Daima yolunuz açık, uğurlu olsun. Daimi saygı ve sevgilerimle.

**Yavuz Akpınar**, *İzmir*

*Yavuz Akpınar, the Turkish writer, poet and scientist, a professor of the Faculty of Literature of Aegean University of Türkiye, a member of the Writers' Union of Türkiye, the Turkish Culture Research Institute and the Writers' Union of Azerbaijan, sent a congratulation letter to Prof. Acad. Hamlet Isakhanli, the founder and head of Khazar University and "Dunya" schools.*

**Dear Esteemed Hamlet Isakhanli,**

While reading the literary newspaper today, I learned that your 76th birthday was celebrated in Gence with ceremonies befitting your esteemed person. On this special occasion, I extend my heartfelt congratulations to you and express my sincere wishes for your continued health and prosperity in all your pursuits. Your exemplary character, marked by kindness, genuine concern for others, unwavering attention to national matters, and compassionate approach to humanitarian issues, has left a lasting impression on me. The achievements of Khazar University, which you founded, and its contributions to the world of knowledge are sufficient for Azerbaijan to take pride in an intellectual like you, who carries responsibilities and truly serves the nation. May your journey always be illuminated with success and may you continue to be guided by respect and fondness.

**Yavuz Akpınar**, *Izmir*



*Hamlet İsaxanlı* *Anar*

# XALQ YAZIÇISI ANAR İLƏ "XƏZƏR"DƏ GÖRÜŞ

# MEETING WITH PEOPLE'S WRITER ANAR AT KHAZAR UNIVERSITY

Martın 15-də Xəzər Universitetinin Mərkəz kampusunda Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar ilə görüş keçirildi. Görüşdə universitetin rəhbərliyi, əməkdaşları və tələbələri, digər ali məktəblərin əməkdaşları, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli, akademiyanın elmi işçiləri, Yazıçılar

(*Ardı səh.18-də*)

On March 15, a meeting was held with the Chairman of the Azerbaijan Writers' Union, People's Writer Anar, at the Fikret Amirov Conference-Concert Center on the Downtown campus of Khazar University.

The meeting was attended by the administration of the university, employees and students, employees of other universities, academician Isa Habibbeyli, the president of the Azerbaijan

(*To be continued page 18*)





National Academy of Sciences, academic staff of the academy, the secretary of the Writers' Union, the chairman of the Azerbaijan Press Council and the editor-in-chief of "525 newspaper" poet-publicist Rashad Majid, poets and writers, artists, media representatives, as well as close friends and family members of the writer representing various fields.

In the lobby, an exhibition featuring books by a renowned writer was on display.

Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, inaugurated the event and underscored its significance. He highlighted that the meeting held particular importance as it coincided with Anar's birthday. The audience

Birliyinin katibi, Azərbaycan Mətbuat Şurasının sədri və "525-ci qəzet"in baş redaktoru şair-publisist Rəşad Məcid, şair və yazıçılar, sənət adamları, mətbuat nümayəndələri, eləcə də yazıçının müxtəlif sahələri təmsil edən yaxın dostları və ailə üzvləri iştirak edirdilər.

Foyedə görkəmli yazıçının kitablarından ibarət sərgi nümayiş olunurdu.

Xəzər Univesitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı tədbiri açaraq, bu görüşün mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. Qeyd etdi ki, bu görüş həm də onunla əlamətdardır ki, Anarın doğum günü ərəfəsinə təsadüf edir.

Xalq yazıçısı iştirakçılar tərəfindən alqışlarla qarşılandı. Sonra Hamlet İsaxanlı onu səhnyə dəvət etdi və ənənəvi görüş qaydasından fərqli olaraq onlar üz-üzə kresloda əyləşdilər.

Öncə Anarın həyat yoluna işıq salan videoçarx nümayiş olundu, sonra yazıçı iştirakçıları salamladı və yaradıcılığına verilən dəyərə görə universitet rəhbərliyinə dərin təşəkkürünü ifadə etdi.

Hamlet İsaxanlı ilə Anar arasında diskussiya şəraitində keçən görüşdə Xalq yazıçısı ona ünvanlanan bütün sualları geniş və əhatəli cavablandırdı. O, həmçinin, sözlərinə yazılan mahnıların da olduğunu söylədi və qardaş Türkiyədə yaşadığı dövrdə vətən həsrəti ilə yazdığı bir şeirə mərhum bəstəkar dostu Emin Sabitoğlunun gözəl bir mahnı bəstələdiyini də xatırladı. Hamlet İsaxanlı cavab olaraq söylədi ki, biz bu mah-



*İlqar Muradov*

warmly welcomed the people's writer with applause.

Following this, Hamlet Isakhanli invited him onto the stage, and in a departure from the traditional meeting format, they sat facing each other in chairs. The event commenced with a video presentation showcasing Anar's life journey, after which the writer greeted the attendees and expressed profound gratitude to the university administration for their recognition of his literary contributions.

nının tarixçəsi barədə artıq məlumatlıyıq və buna görə də onun bəstəkarın özündən sonra ən gözəl ifaçısı olan Xalq artisti İlqar Muradovu tədbirə dəvət etmişik.

Sonra Xalq artisti Xəzər Universiteti Kamera orkestrinin (bədii rəhbər - universitetin Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) müşayiəti ilə həmin mahnını ifa etdi.

Sonra Anar Rzayevin əsərləri əsasında çəkilən filmlərdən parçalar təqdim edildi və bu kinofilmlərin bəzi məziyyətləri ilə bağlı Hamlet İsaxanlı ilə Xalq yazıçısı arasında fikir mübadiləsi oldu.

Tədbirin yekununda Xalq yazıçısının doğum günü münasibətilə hazırlanan tort səhnəyə gətirildi və Zülfiyyə Sadıqova Anara universitet adından gül dəstəsi təqdim etdi.



During the discussion meeting between Hamlet Isakhanli and Anar, the People's Writer provided thorough and detailed responses to all the questions posed to him. He mentioned that there are songs inspired by his writings, recalling a poignant memory of his late composer friend Emin Sabitoghlu composing a beautiful song based on a poem he wrote expressing longing for his homeland while living in Türkiye. In response, Hamlet Isakhanli acknowledged familiarity with the history of this song and revealed that they had invited the People's Artist Ilgar Muradov, considered the most exquisite performer after the composer himself, to the event.

Then the People's Artist performed the same song accompanied by the Khazar University Chamber Orchestra (artistic director - head of the university's Music and Art Department, Honored teacher, pianist Zulfiyya Sadygova).

Then excerpts from films based on Anar Rzayev's works were presented, and there was an exchange of views between Hamlet Isakhanli and the People's Writer about some merits of these films. At the end of the event, a cake made on the occasion of the People's Writer's birthday was brought to the stage and Zulfiyya Sadigova presented a bouquet of flowers to Anara on behalf of the university.





# XƏZƏR UNİVERSİTETİNƏ 2023-2028-Cİ İLLƏR ÜÇÜN AKKREDİTASİYA SERTİFİKATI TƏQDİM OLUNDU

# KHAZAR UNIVERSITY WAS AWARDEDACCREDITATION CERTIFICATE VALID FOR 2023-2028

Martın 19-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və universitetin rektoru Dos. İradə Xəlilovanın Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) İdarə Heyətinin sədri Tural Əhmədovla görüşü keçirilib.

Görüş zamanı ilk növbədə Xəzər Universiteti ilə gələcək əməkdaşlığın istiqamətləri, Akkreditasiya Komissiyası tərəfindən verilmiş tövsiyələrin icrası və digər məsələlər müzakirə edilib.

Sonda isə Xəzər Universitetinə 2023-2028-ci illər üçün Akkreditasiya sertifikatı təqdim olunub.

On March 19, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor. Acad Hamlet Isakhanli, along with the Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova, held a meeting with Tural Ahmadov, the chairman of the Board of the Agency for Quality Assurance in Education (TKTA). The meeting focused on exploring future cooperation opportunities between TKTA and Khazar University, implementing recommendations of the Accreditation Commission, among other topics.

Concluding the meeting, Khazar University was awarded an Accreditation Certificate valid for the years 2023 to 2028.




*Tural Əhmədov, Hamlet İsaxanlı, İradə Xəlilova*

## XƏZƏR UNİVERSİTETİNİN DOKTORANTI ELMİ İŞİNİ MÜDAFİƏ EDİB

## KHAZAR UNIVERSITY PHD CANDIDATE SUCCESSFULLY DEFENDS DISSERTATION

Fevralın 23-də Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi verən FD 1.11 Dissertasiya şurasında Xəzər Universitetinin 5310.01 - "Dünya İqtisadiyyatı" üzrə doktorantı Mustafa Mohammad Ahmad Alalawneh "Assessing the Impact of Foreign Direct Investment on Jordan's Economic Development - Birbaşa xarici investisiyaların İordaniyanın iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi" mövzusunda fəlsəfə doktoru eımi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə edib.

Dissertasiya şurasının sədri prof. Yadulla H.Həsənlinin rəhbərliyi ilə keçirilən iclasda şura üzvlərinin sualları cavablandırıldı. Dissertasiya şurası rəsmi opponentlərin, ayrı-ayrı alimlərin dissertasiya və onun avtoreferatı haqqında rəylərini, iddiaçının elmi iş üzrə yerli və xarici elmi jurnallarda 6 məqaləsinin və 5 konfrans materialının çap olunduğunu, dissertasiya işinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdiyini nəzərə alaraq, iddiaçının fəlsəfə doktoru elmi dərəcəsi almağa layiq olması barədə qərar qəbul etdi.

On February 23, Mustafa Mohammad Ahmad Alalawneh, PhD student in 5310.01- "World Economy" of Khazar University, defended his thesis for the degree of Doctor of Philosophy on "Assessing the Impact of Foreign Direct Investment on Jordan's Economic Development " at the dissertation Council FD 1.11 at Azerbaijan State University of Economics granting degrees Doctor of Science and Doctor of Philosophy.

At the meeting chaired by the chairman of the dissertation council, Prof. Yadulla H.Hasanli, the questions of the board members were answered.

The Dissertation Council decided that the applicant can be granted Ph.D. degree taking into account the opinions of official opponents, individual scientists on the dissertation and its abstract, applicant's 6 articles and 5 conference materials published in local and foreign scientific journals, and that the dissertation's meeting the requirements of the High Attestation Commission under the President of the Republic of Azerbaijan.

## MİLLİ ARDICIL TƏRCÜMƏ MÜSABİQƏSİNİN BAKI SLAVYAN UNİVERSİTETİ ÜZRƏ SEÇİM TURU

## SELECTION ROUND OF THE II NATIONAL CONSECUTIVE INTERPRETATION CONTEST AT BAKU SLAVIC UNIVERSITY

Martın 1-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin Tərcümə Mərkəzi ilə birgə təşkil etdiyi II Milli Ardıcıl Tərcümə Müsabiqəsinin (II National Consecutive Interpretation Contest) Bakı Slavyan Universiteti üzrə seçim turu keçirilib. Seçim turunda tərcümə fakültəsində (ingilis dili ixtisasında) təhsil alan və ardıcıl tərcümə qabiliyyəti güclü olan tələbələr cəlb olunublar.

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova və Beynəlxalq Sinxron Tərcüməçilər Assosiasiyasının ilk azərbaycanlı üzvü, Fransa prezidentinin və hökumətinin akkreditasiyalı tərcüməçisi, Xəzər Universitetinin Tərcümə Mərkəzinin koordinatoru Elvin Abbasbəyli münsiflər heyəti olaraq tələbələri əvvəldən müəyyən olunmuş meyarlar əsasında qiymətləndiriblər.

Seçim turunun qalibləri müsabiqənin may ayında keçiriləcək final mərhələsində Bakı Slavyan Universitetini təmsil edəcəklər.

The II National Consecutive Interpretation Contest, organized by Khazar University's Department of English Language and Literature and the Center of Translation and Interpretation (CTI), held its selection round on March 1, at Baku Slavic University. In the selection round, students majoring in translation (in English) and having proficient translation skills were involved.

Milana Abbasova, the head of Khazar University's English Language and Literature Department, and Elvin Abbasbeyli, the first Azerbaijani member of the International Association of Conference Interpreters and accredited translator of the president and government of France, who also serves as a coordinator of Khazar University's Center of Translation and Interpretation (CTI), evaluated the students based on the established criteria.

The winners of the selection round will represent Baku Slavic University in the final stage of the contest scheduled for May.

# "1 MART-ÜMUMDÜNYA MÜLKİ MÜDAFİƏ GÜNÜ"NƏ HƏSR OLUNMUŞ TƏDBİR



*Mais Talışxanov*



# EVENT DEDICATED TO "MARCH 1 - WORLD CIVIL DEFENSE DAY"

Martın 1-də Xəzər Universitetində Təbiət elmləri və mühəndislik fakultəsinin, Həyat elmləri departamentinin təşkilatçılığı ilə "1 Mart - Ümumdünya Mülki Müdafiə Günü"nə həsr edilən tədbir keçirilib. Tədbirdə universitetin müəllim heyəti və tələbələr iştirak ediblər.

Xəzər Universitetinin əməkdaşı, ehtiyatda olan polkovnik-leytenant Mais Talışxanov tədbiri açaraq, tələbələrə mülki müdafiənin əhəmiyyəti, vəzifələri, əhalinin fövqəladə hallarda özlərini necə aparmalı olduqları barədə ümumi məlumat verib.

"1 Mart - Ümumdünya Mülki Müdafiə Günü" tədbiri hər il bir mövzuya həsr edilir. Bu il isə tədbir "Mülki Müdafiə sahəsində innovasiya texnologiyaları" mövzusunu əhatə edib.

On March 1, an event dedicated to "March 1 - World Civil Defense Day" was held at Khazar University, organised by the School of Science and Engineering, Department of Life Sciences. The university's faculty members and students attended the event.

Khazar University employee, reservist Lieutenant-Colonel Mais Talishkhanov opened the event and provided students with a general overview of the significance and objectives of civil defense, as well as guidance on how individuals should respond in emergency situations.

Each year, the "March 1 - World Civil Defense Day" event focuses on a specific theme. This year, the spotlight was on "Innovative Technologies in Civil Defense."





Tədbirin davamında tələbələr FH - da zədələnmə ocaqlarında və fəlakət zonalarında zərərçəkənlərə tibbi və təxliyə tədbirlərinin görülməsi xilasetmə işlərinə aid olan, insanlara ilk yardım zamanı süni tənəffüsün verilməsi və ürəyin qapalı masajının qaydaları, ilk yardım çantasının istifadəsi, qanaxmalar zamanı ilk yardım qaydaları, müasir dövrdə istehsalatda, məişətdə müxtəlif növ kimyəvi maddələr və onların birləşmələri, zədələnmə və zəhərlənmələr zamanı ilk yardım göstərilməsi qaydaları barədə geniş izahat verib və praktiki hərəkətlər nümayiş etdiriblər.




*Cəmalə Eldarova*

Mülki müdafiənin təminatı olan kəşfiyyat, onun xüsusi növü olan radiasiya və kimyəvi kəşfiyyat haqqında, istifadə olunan cihazlar və usulları barədə məlumatıları tələbələr praktiki olaraq göstəriblər.

Universitetin MM qərargahının üzvü, Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova tələbələr qarşısında insanların təhlükəsizliyinin təmin olunması, o cümlədən də təbii və texnogen xarakterli fövqəladə hallar zamanı əhalinin mühafizəsinin xüsusi əhəmiyyəti, universitetdə tədris olunan "Mülki müdafiə və tibbi biliklərin əsasları" fənninin vacibliyi haqqında çıxış edərək, iştirakçıların suallarını cavablandırıb.

Sonda tələbələrə sertifikat verilib.



In the continuation of the event, the students learned about the rules of giving artificial respiration and closed heart massage during first aid, as well as guidelines for handling bleeding incidents both in professional settings and at home. They received detailed explanations regarding different types of chemicals and their potential combinations, along with protocols for providing first aid in instances of injury and poisoning, accompanied by practical demonstrations.

The students provided hands-on demonstrations of intelligence, a cornerstone of civil defense, covering its specialized branches such as radiation and chemical intelligence, including the devices and methods utilized in these fields.

Jamala Eldarova, a member of the University's Civil Defense headquarters and head of the Department of Life Sciences, addressed the students regarding the crucial significance of safeguarding people's safety, particularly in the natural and man-made emergency situations. She emphasized the importance of the subject "Civil Defense and Basics of Medical Knowledge" taught at the University and responded to inquiries from the audience.

At the end, certificates were awarded to the students.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ BDU-DA TƏLİM KEÇİRİB

Martın 3-də Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, Ramil Əhməd Bakı Dövlət Universitetində "Xəyaldan gerçəkliyə: yaradıcı yazarlığın öyrədilmə metodları" adlı təlim keçib.

BDU Filologiya fakültəsinin təşkilatçılığı ilə keçirilən təlimdə yazarlığın öyrədilmə metodlarının dünya təcrübəsindən danışılıb və tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, Ramil Əhməd "Yaradıcı yazarlığın estetikası və pedaqogikası" adlı doktorluq dissertasiyasını İstanbul Universitetində uğurla müdafiə edib. Bu, Türkiyə və Azərbaycanda Creative Writing sahəsi üzrə yazılan ilk doktorluq dissertasiyasıdır.

## LANGUAGE AND LITERATURE DEPARTMENT LECTURER CONDUCTS A TRAINING AT BSU

On March 3, Ramil Ahmed, a lecturer at Khazar University's Department of Languages and Literatures, conducted a training session entitled "From dream to reality: teaching methods for creative writing" at Baku State University. The training, hosted by BSU's Philology Faculty, focused on global approaches to teaching writing methods and addressed students' inquiries.

Note that, Ramil Ahmed recently defended his doctoral dissertation titled "Aesthetics and Pedagogy of Creative Writing" at Istanbul University. This ground-breaking thesis marks the first in Türkiye and Azerbaijan to delve into the field of Creative Writing at the doctoral level.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ NURU PAŞANIN VƏFATININ 75-Cİ İLDÖNÜMÜNƏ HƏSR EDİLƏN KOFRANSDA

Martin 3-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Katibliyi Qafqaz İslam Ordusunun komandanı, "Bakının xilaskarı" Nuru Paşanın əbədiyyətə qovuşmasının 75-ci ildönümünə həsr edilən konfrans keçirib. Səfirlər, millət vəkilləri, elm adamları və media nümayəndələrinin iştirak etdiyi kofransda  Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu məruzə ilə çıxış edib.

## HEAD OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT AT CONFERENCE HONORING 75TH ANNIVERSARY OF NURU PASHA`S DEATH

On March 3, the Secretariat of the Parliamentary Assembly of Turkic States (TURKPA) organized a conference commemorating the 75th anniversary of the death of Nuru Pasha, the commander of the Caucasus Islamic Army, known as "the savior of Baku". Assoc. Prof. Telman Nusratoghlu, the head of the Department of History and Archeology, delivered a speech during the conference, which was attended by ambassadors, MPs, scholars, and members of the media.



*Cəmilə İsmayılova*

# "ERKƏN NİKAH VƏ FƏSADLARI"NA HƏSR OLUNAN SEMİNAR

# SEMINAR ON "EARLY MARRIAGE AND ITS CONSEQUENCES"

Martın 4–də Xəzər Universiteti Psixologiya departamentinin və universitetin Psixologiya tələbə klubunun birgə təşkilatçılığı ilə "Erkən nikah və fəsadlar" adlı seminar keçirilib.

Seminara dəvət olunan Azərbaycan Tibb Universtitetinin və Nova Tibb Universitetinin (Portuqaliya, Lissabon) məzunu, həkim psixiatr-psixoterapevt Cəmilə İsmayılova çıxış edərək, erkən nikahın gənclərin inkişaf və həyatlarına zərərli olduğu, erkən evliliyə məcbur edilən gənclərin hüquqları, onların müraciət edə biləcəyi qurumlar barədə geniş məlumat verib. Seminar zamanı fikir mübadiləsi aparılıb, tələbələrin çoxsaylı sualları cavablandırılıb.



On March 4, a seminar titled "Early marriage and its consequences" was held under the joint organization of the Khazar University Psychology Department and the Psychology Club.

Jamila Ismayilova, a graduate of Azerbaijan Medical University and Nova Medical University (Portugal, Lisbon), was invited to the seminar. In her speech, she gave extensive information about the harms of early marriage to the development and lives of young people, the rights of young people who are forced into early marriage, and the institutions they can apply for. During the seminar, opinions were exchanged, many questions of the students were answered.



# VARŞAVA UNİVERSİTETİNİN ŞƏRQİ AVROPA TƏDQİQATLARI MƏRKƏZİNİN MƏLUMAT SESSİYASI



*Şəhla Kazımova*

# INFORMATION SESSION OF THE CENTRE FOR EAST EUROPEAN STUDIES, UNIVERSITY OF WARSAW

Martın 5-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin təşəbbüsü ilə Varşava Universiteti nin Şərqi Avropa Mərkəzi tələbələr üçün məlumat sessiyası keçirib. Məlumat sessiyasında Varşava Universiteti Şərqi Avropa Mərkəzinin nümayəndəsi Şəhla Kazımova, Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Orxan Vəliyev, Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, koordinatoru Turan Əlizadə və Xəzər Uiversitetinin tələbələri iştirak ediblər.

Şəhla Kazımova tələbələrə Varşava Universitetinin təqaüd və tədqiqat proqramları, bu proqramlara müraciət qaydaları və prosesi, proqramlara qoşulan tələbələr üçün hansı imkanların yarana biləcəyi barədə məlumat verib və bu proqramlarda iştirak etməyin faydalarından danışaraq, öz təcrübəsini bölüşüb..

Sonda tələbələrin sualları cavablanıdırılıb.

On March 5, at the initiative of Khazar University's International Relations Department, Warsaw University held an information session for Central Eastern European students. The information session was attended by the representative of Warsaw University Eastern Europe Center Shahla Kazimova, Khazar University Political Sciences and Philosophy Department Head Orkhan Valiyev, Career and Alumni Center Director Zarifa Aliyeva, International Relations Department Head Fatima Valiyeva, coordinator Turan Alizade and students of Khazar University.

Shahla Kazimova provided students with information on the scholarship and research programs available at the University of Warsaw, including details on application procedures and eligibility criteria. She also discussed the potential opportunities awaiting students who enroll in these programs, sharing her own experiences and highlighting the advantages of participation.

At the end, students' questions were answered.

# ERASMUS+ TƏLƏBƏ MÜBADİLƏ PROQRAMI
# ERASMUS+ STUDENT EXCHANGE PROGRAM

## ZƏNGİN TƏCRÜBƏ QAZANDIM



Mən, Arif Rüstəmov Xəzər Universitenin Təbiət elmləri və mühəndisliyi fakültəsində Neft-qaz mühəndisliyi ixtisası üzrə ikinci kurs magistr tələbəsiyəm.

2023-2024-cü tədris ilinin payız semestrində Erasmus+ proqramının təşkilatçılığı ilə İtaliyanın Turin Politexnik Universitetində "Georesurslar və geoenerji mühəndisliyi" ixtisası üzrə mübadilə proqramında iştirak etdim.

İtaliyada oxuduğum semestr ərzində əldə etdiyim təhsil təcrübəsi mənim üçün unudulmaz oldu. Keçirilən dərslər yeni biliklər əldə etməyimdə böyük rol oynadı. İtaliyanın yerli və əcnəbi müəllimlərinin fərqli tədris üsulu ilə keçdiyi dərslərdə neft-qaz sahəsində istifadə olunan yeni metodologiyalar haqqında geniş məlumatlar əldə etməklə yanaşı,bərpa olunan enerji mənbələri haqda da yeni biliklərə yiyələndim.

Mütəmadi iştirak etdiyim mühazirələrdən qazandığım biliklər yekun imtahanları uğurla başa vurmaqda yardımçım oldu. Həmçinin, qazandığım təcrübə və biliklərin gələcək təhsil və karyeramda böyük rolu olacağına çox inanıram. Tədris semestri ərzində mütəmadi olaraq təşkil olunan karyera sərgiləri, mütəxəssislərlə olan infosesiyalar mənim karyera planlamamda çox kömək oldu.

Həmçinin, bu proqram mənə İtaliyanın zəngin və qədim mədəniyyətini öyrənməyə imkan yaratdı. Eyni zamanda, yerli və xarici tələbələrlə hər zaman vaxt keçirməyə çalışdım. Bu baxımdan İtaliyada keçirdiyim müddət ərzində müxtəlif dostlar qazandım və fərqli mədəniyyətlərin bir hissəsi olmaq şərəfinə nail oldum.

Düşünürəm ki, bu proqram mənim gələcəyim üçün qurduğum planları daha da dəstəklədi.

**Arif Rüstəmov**

## I ACQUIRED VALUABLE EXPERIENCE

I, Arif Rustamov, am currently a second-year master's student pursuing a degree in Oil and Gas Engineering at the School of Natural Sciences and Engineering at Khazar University. In the fall semester of the academic year 2023-2024, I participated in an exchange program at the Polytechnic University of Turin, Italy, specializing in "Georesources and geoenergy engineering," facilitated by the Erasmus+ program.

The educational experience I encountered during my time in Italy left an indelible mark on me. The courses played a pivotal role in broadening my knowledge base. Through engaging with local and international instructors who employed diverse teaching methodologies, I not only gained extensive insights into innovative approaches within the oil and gas sector but also acquired newfound understanding of renewable energy sources. The information gleaned from the lectures I attended regularly proved instrumental in my successful completion of final examinations. Moreover, I firmly believe that the experience and knowledge I acquired will significantly shape my future educational pursuits and career endeavors. The regular organization of career fairs and information sessions featuring experts greatly aided me in my career planning efforts.

Additionally, this program allowed me to learn about the rich and ancient culture of Italy. At the same time, I endeavored to engage with both local and international students, fostering numerous friendships and embracing diverse cultural perspectives throughout my time in Italy. I am confident that this program has further supported my plans for the future.

**Arif Rustamov**



Fahad bin Ahmad Yahya Alzahrani — Bassam Bin Abdullah Al-Bassam

# SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI TƏHSİL NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

# DELEGATION OF THE MINISTRY OF EDUCATION OF THE KINGDOM OF SAUDI ARABIA AT KHAZAR UNIVERSITY

Martın 6-da Xəzər Universitetində Səudiyyə Ərəbistanı Krallığı Təhsil Nazirliyinin ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dos. İradə Xəlilova, fakültə dekanları və departament müdirləri, qarşı tərəfdən isə Səudiyyə Ərəbistanı Universitet İşləri Şurasının Baş Katibi Prof. Bassam Bin Abdullah Al-Bassam`ın rəhbərliyi ilə nümayəndə heyəti (Şahzadə Nourah bint Abdulrahman Universiteti, İmam Məhəmməd Universiteti, Umm Əl-Qura Universiteti, Mədinə İslam Universitetinin professor-müəllim heyəti) iştirak ediblər.

Hər iki tərəf fəaliyyətləri barədə qısa məlumat verib. Xəzər Universiteti tərəfdən bu missiyanı Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva icra edib.

On March 6, a meeting was held at Khazar University with the delegation of the Ministry of Education of the Kingdom of Saudi Arabia visiting our country. The founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, Rector of the University, Assoc. Prof. Irada Khalilova, faculty deans and heads of departments, the delegation led by the Secretary General of the Saudi Arabian University Affairs Council, Prof. Bassam Bin Abdullah Al-Bassam and the academic staff of Princess Nourah bint Abdulrahman University, Imam Muhammad University, Umm Al-Qura University, Madinah Islamic University took part in the meeting.

Both parties gave brief information about their activities. Representing Khazar University, Fatima Valiyeva, the head of the International Relations Department, led this initiative.

Qarşılıqlı fikir mübadiləsi zamanı Səudiyyə Ərəbistanı Krallığı ilə elmi-tədqiqat sahəsində mübadilə imkanları və digər əməkdaşlıqlar müzakirə edilib.

Bundan əlavə, Nanotexnologiya laboratoriyası, Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzi və Nailəxanım Mədəniyyət Mərkəzinə kampus turu keçirilib.

Xəzər Universiteti adından qonaqlara hədiyyə təqdim olunub.



Ebtesam bint Saleh Alotman — Abdullah bin Abdulaziz Altamim

Discussions during the exchange included opportunities for academic exchanges and other collaborative ventures in scientific research with the Kingdom of Saudi Arabia.

In addition, a campus tour was conducted to the Nanotechnology laboratory, Khazar University Library Information Center and Nailakhanim Cultural Center.

A gift was presented to the guests on behalf of Khazar University.



*Hamlet İsaxanlı, İradə Xəlilova*



*Mosallem bin Bakheit Mohammed Alfazi*





*Fatimə Vəliyeva*

# KOÇ UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Martın 4-7-də Türkiyənin İstanbul şəhərində yerləşən Koç Universitetinin nümayəndələri - Tələbə mühasibat meneceri Adile Özen və Tələbə mühasib köməkçisi Pırlanta Gelani Erasmus+ İşçi Heyətinin Mübadilə Proqramı (Erasmus+ KA171) çərçivəsində Xəzər Universiteti tərəfindən qəbul ediliblər.

Proqramın ilk günü Xəzər Universitetinin baş mühasibi Ləman Vurğun, mühasib Taliyə Hüseynzadə, Maliyyə şöbəsinin direktoru Nağı Bayramlı, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatorları Arzu Bədəlova, Turan Əlizadə və Əli Mirzəzadənin iştirakı ilə türkiyəli heyətlə tanışlıq olub.

Proqrama uyğun olaraq Arzu Bədəlovanın rəhbərliyi ilə Xəzər Universitetini daha yaxından tanıtmaq məqsədilə qonaqlar üçün kiçik kampus turu təşkil olunub.Tur çərçivəsində kitabxana, laboratoriya və Nailəxanım Mədəniyyət Mərkəzinə baxış keçirilib və qonaqlara görkəmli pedaqoq Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilib.

Martın 7-də Adile Özen, Pırlanta Gelani və

# KOCH UNIVERSITY REPRESENTATIVES AT KHAZAR UNIVERSITY

From March 4th to 7th, Adile Ozen and Pırlanta Gelani from Koç University in Istanbul, Türkiye, participated in the Erasmus+ Staff Exchange Program (Erasmus+ KA171) at Khazar University.

On the first day of the program, the chief accountant of Khazar University's Accounting Office, Laman Vurgun, accountant Taliya Huseynzade, director of the Finance Department, Nagi Bayramli, head of the International Relations Department, Fatima Valiyeva, and their coordinators, Arzu Badalova, Turan Alizade, and Ali Mirzazade, were introduced to the Turkish delegation.

Following the program's guidelines, Arzu Badalova led a brief campus tour for the guests to provide them with a closer look at Khazar University. The tour included visits to the library, laboratory, and Nailekhanim Culture Center, where the guests received comprehensive explanations about the exhibits showcasing the life and contributions of the distinguished educator Nailekhanim Isayeva.

On March 7, Adile Ozen, the student accounting manager of Koch University, Pırlanta Gelani,



*Ləman Vurğun*



*Pırlanta Gelani* *Adile Özen*

Ləman Vurğun, Taliyə Hüseynzadə tərəfindən Tələbə uçotu üzrə Bilik Mübadiləsi ilə bağlı tədbir həyata keçirilib. Sonra qonaqlar İqtisadiyyat və menecment fakültəsində, həmçinin İctimai əlaqələr və media şöbəsində olublar.

Proqramın davamında "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu və "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna ekskursiyalar təşkil olunub.

Proqram başa çatandan sonra nümayəndə heyətinə sertifikat və hədiyyə təqdim edilib.

assistant student accountant specialist, and Laman Vurgun, the chief accountant of Khazar University, as well as Taliya Huseynzade, held an event on the Knowledge Exchange on Student Accounting. Later, the School of Economics and Management, as well as Public Relations and Media Office were visited.

In the continuation of the program, excursions to "Ateshgah Temple" State Historical-Architecture Reserve and "Yanardag" State Historical-Cultural and Nature Reserve were organized. After the program, the delegation was presented with a certificate and a gift.





*Ləman Vurğun, Turan Əlizadə, Pırlanta Gelani, Adile Özen, Fatimə Vəliyeva, Arzu Bədəlova, Taliyə Hüseynzadə*

# İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNDƏ TƏLƏBƏLƏRARASI ELMİ DİSPUT

# SCHOOL OF ECONOMICS AND MANAGEMENT HOSTS INTER-STUDENT SCIENTIFIC DEBATE



Martın 11-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi və universitetin "İqtisadçı" klubunun birgə təşkilatçılığı ilə Xəzər Universiteti və Dövlət Gömrük Komitəsi Akademiyasının tələbələri arasında elmi disput keçirilib.

Disput siyasi və elmi platformalarda tez-tez müzakirəyə çıxarılan və son illər Azərbaycan üçün də aktual sayılan "Xarici ticarət siyasəti: azad ticarət, yoxsa proteksionizm" mövzusuna həsr olunub.

On March 11, a scientific debate was held between students of Khazar University and Academy of State Customs Committee under the joint organization of Khazar University School of Economics and Management and "Economist" club. The debate focused on the topic "Foreign Trade Policy: Free Trade vs. Protectionism," a subject frequently deliberated on political and scholarly forums, deemed particularly pertinent to our nation in recent times.



Tədbirdə İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, həmçinin departamentin tədris heyəti (Bahadır Baysal, Kamalə Babayeva və b.) də elmi opponent və hakim funksiyalarını icra ediblər.

Öncə çıxış edən Gömrük Komitəsi Akademiyasının tələbələri (Təvəkkül Hacıyev, Emin Məmmədli və b.) dövlətin proteksionist siyasətini həm elmi-nəzəri, həm də empirik cəhətdən müdafiə edən etibarlı və əsaslı arqumentlər təklif ediblər. Sonra "İqtisadçı" klubunun üzvləri Abdulla Nuriyev, Ənvər Bədəlov, Hüseyn Dadaşov və Qönçə Qurbanova azad ticarət siyasəti və onun üstünlüklərini özündə əks etdirən ciddi əsaslandırılmış nəzəri mülahizələri və real faktları qarşı tərəfə təqdim ediblər. Qarşılıqlı sual-cavab və müzakirə şəraitində keçən ikinci hissədə tərəflərin hər biri digər tərəfin arqumentlərinə əks arqumentlərlə cavab verməyə çalışıb.



*Təvəkkül Hacıyev* *Bahadır Baysal*



*Emin Məmmədli* *Kamalə Babayeva*

Dean of the School of Economics and Management, Dr. Jeyhun Mammadov, along with department's academic staff (Bahadır Baysal, Kamala Babayeva et c.), acted as scientific opponents and judges during the event. The students from the Academy of State Customs Committee (Təvəkkul Hajıyev, Emin Mammadli et c.), who spoke first, presented compelling and substantiated arguments in support of the state's protectionist policy, drawing on both theoretical frameworks and empirical evidence. Subsequently, members of Khazar University's "Economist" club Abdulla Nuriyev, Anvar Badalov, Huseyn Dadashov, and Goncha Gurbanova presented well-founded theoretical considerations and empirical evidence advocating for the benefits of free trade policy. In the second part, characterized by mutual questioning, answering, and discussion, each party endeavored to counter the arguments put forth by the opposing side with their own compelling arguments.



CENTER OF ANALYSIS OF INTERNATIONAL RELATIONS
BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİNDƏ

# HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY AT THE CENTER FOR INTERNATIONAL RELATIONS ANALYSIS

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev martın 12-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) tərəfindən təşkil edilən müzakirədə "Yeni dövrün xarici siyasətində milli hədəflər" mövzusunda çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli ideoloji inkişaf və onun müdafiəsi üçün konseptual proqram xarakterli çıxışındakı tezisləri ilə əlaqədar Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində müzakirələr təşkil edilib.

"Milli ideya müzakirələri: ieni dövrün xarici siyasətində milli hədəflər" başlığı ilə keçirilən toplantıda əsas istiqamətlər Azərbaycan Respublikasının təhlükəsizliyinin qorunması, yeni geosiyasi reallıqlar fonunda sərhədlərin mühafizəsi, beynəlxalq böhranlara adekvat reaksiya və mümkün ideoloji risqlərə qarşı preventiv tədbirlərin görülməsi olub.

Yerli beyin mərkəzlərindən, ali təhsil müəssisələrindən nümayəndələr, eləcə də millət vəkilləri, hökumət rəsmiləri və ekspertlər sözügedən mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Assoc. Prof. Orkhan Valiyev, the head of the Department of Political Science and Philosophy, delivered a presentation on "National Objectives in the Foreign Policy of the New Era" during a discussion hosted by the Center for International Relations Analysis on March 12. The center organized discussions regarding the themes outlined by President Ilham Aliyev of the Republic of Azerbaijan in his speech on the conceptual program for national ideological development and its defense.

During the gathering titled "National Idea Discussions: National Goals in the Foreign Policy of the New Era," the primary focuses encompassed safeguarding the security of the Republic of Azerbaijan, fortifying borders amidst evolving geopolitical landscapes, offering appropriate responses to international crises, and implementing preventive measures against potential ideological threats. Representatives from local think tanks, universities, as well as members of parliament, government officials, and experts engaged in discussions revolving around these themes.

*https://www.youtube.com/watch?v=hK7pNXl6S2M*



## KARYERA VƏ MƏZUNLAR MƏRKƏZİNDƏ GÖRÜŞ

## MEETING AT CAREER AND ALUMNI CENTER

*Zərifə Əliyeva* *Şəhla Abbasova*

Martın 12-də Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə görüş keçirilmişdir. Görüşdə mərkəzin direktoru Zərifə Əliyeva, Təhsil departamentinin müdiri Leyla Əliyeva, Memarlıq və dizayn departamentinin müdiri Şəhla Abbasova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı, Azərbaycan Respublikası Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının tərəfdaşlığı ilə fəaliyyət göstərən "İrəliləyiş" layihəsinin meneceri Rauf Əliyev iştirak etmişlər və hazırda istehsalat təcrübəsinə cəlb olunan tələbələr üçün "Yumşaq bacarıqlar" mövzusunda 2 günlük təlimlərin təşkil edilməsi məsələsi müzakirə olunub. Təlimlərə aprel ayında start veriləcək.

Görüşdə bütün ixtisaslar üzrə tələbələrin istehsalat təcrübələrinin təşkili və işlə təmin olunma məsələləri də geniş müzakirə olunub.



*Leyla Əliyeva* *Rauf Əliyev*

On March 12, a meeting, organized by the Career and Alumni Center, took place with the participation of Rauf Aliyev, manager of the "Progress" project, operating in partnership with the Youth Fund of the Republic of Azerbaijan and the Union of Student Youth Organizations of Azerbaijan coordinated by the State Employment Agency under the Ministry of Labor and Social Protection of the Population, Zarifa Aliyeva, director of the Career and Alumni Center, Leyla Aliyeva, head of the Education Department, and Shahla Abbasova, head of the Architecture and Design Department. The primary agenda item was the organization of 2-day "Soft Skills" training sessions for students engaged in internships, scheduled to commence in April.

Additionally, the meeting extensively addressed matters concerning internship organization and employment opportunities for students across various specialties.

# "GƏLƏCƏYİN QONAQPƏRVƏRLİK LİDERLƏRİ - UĞUR HEKAYƏLƏRİ" ADLI TƏDBİR



*Nərmin Aktaş, Sevinc Purvis, Özgür Sezercan, Nigar Nəsirova*

Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə martın 12-də Mərmər salonda Azərbaycan Hotellər Assosiyasiyası tərəfindən İqtisadiyyat və menecment fakültəsinin Turizm işinin təşkili ixtisasında, həmçinin Mühəndislik və təbiət elmləri fakültəsinin Dizayn ixtisasında təhsil alan tələbələri üçün "Gələcəyin qonaqpərvərlik liderləri - uğur hekayələri" adlı tədbir keçirilib.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva qonaqları və tələbələri salamlayaraq, qonaqpərvərlik mövzusunda maarifləndirmənin genişlənməsinin vacib olduğunu qeyd edib.

İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov universitet və fakültə haqqında qısa məlumat verdikdən sonra turizm sahəsinin inkişafının vacibliyini və tələbələrin bu sahə üzrə təcrübədə olmalarının önəmini vurğulayıb.

Fakültənin koordinatoru Bahadur Baysal və müəllimi Qəhrəman Yusupov da mövzu ətrafında fikirlərini ifadə ediblər.

Tədbirdə Four Seasons Hotel Baku-nun meneceri Özgür Sezercan, JW Absheron Baku Hotel-in İnsan resursları üzrə direktoru Sevinc Purvis, Radisson Hotel Baku-nun Kommersiya direktoru Nigar Nəsirova, Azərbaycan Hotellər Assosiasiyasının icraçı direktorunun müavini Nərmin Aktaş çıxış ediblər. Spikerlər "Uğurun arxasındakı hekayə", "Niyə qonaqpər-

On March 12, the Azerbaijan Hotel Association organized a "Future Hospitality Leaders - Success Stories" meeting, facilitated by the Career and Alumni Center.

The event took place in the Marble Hall and was attended by students from Khazar University's School of Economics and Management, as well as the School of Science Engineering, specializing in "Tourism" and "Design" respectively. Zarifa Aliyeva, Director of the Career and Alumni Center, extended a warm welcome to the guests and students, emphasizing the significance of raising awareness about the hospitality industry.

Then the dean of the School of Economics and management Jeyhun Mammadov, after giving brief information about the University and the faculty, emphasized the importance of the development of Tourism and the importance of students ' experience in this field.Bahadur Baysal, coordinator of the School of Economics and Management, and Gahraman Yusupov, faculty member from the same school, also expressed their views on the subject. Four Seasons Hotel Baku hotel manager Özgür Sezercan, JW Absheron Baku Hotel & The Ritz-Carlton Baku Cluster HR Director Sevinj Purvis, Radisson Hotel Baku Commercial Director Nigar Nasirova, Azerbaijan Hotels Association Deputy Executive Director Narmin Aktash spoke at the event. Each

# "FUTURE HOSPITALITY LEADERS"-SUCCESS STORIES MEETING OF STUDENTS




vərlik" və ya oxşar ruhlandırıcı mövzular haqqında danışıblar və hər biri öz uğur hekayələrini tələbələrlə paylaşıblar, karyeralarını qurarkən hansı maneələrlə qarşılaşdıqlarını, qonaqpərvərlik prinsiplərinin inkişafı üçün nələr etməyin vacib olduğunu, turizm sektorunun dayanıqlı inkişafını təmin etmək üçün daim təşəbbüs göstərdiklərini söyləyiblər.

Sonda sual-cavab sessiyası keçirilib. Altı nəfər ən fəal tələbə qalib seçilib və onlar spikerlərin çalışdığı hotellərdə spikerlə birlikdə qəhvə içmək şansı qazanıblar.

speaker spoke on "The Story Behind Success", "Why Hospitality" or similar inspiring topics and each shared their success stories with the students and what obstacles they faced while building their careers, what is important to do for the development of hospitality principles, tourism sector they said that they always take initiative to ensure sustainable development.

The event concluded with a question-and-answer session. The six most engaged students were chosen as winners, receiving the opportunity to have coffee with the speakers at their respective hotels.





"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# ƏDƏBİYYAT İNSTİTUTUNUN 90 İLLİK YUBİLEYİ QEYD OLUNUB




*İsa Həbibbəyli* *Sultan Raev*

Martın 4-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Böyük akt zalında Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 90 illik yubileyinə həsr olunmuş "Ədəbiyyatşünaslıq elminin baş qərargahı: ənənələr, mərhələlər və çağırışlar" mövzusunda tədbir keçirilib.

Yubiley tədbirini AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, 22 mart 1933-cü ildə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan şöbəsində Ədəbiyyat sektoru təşkil edilib, dövrün tanınmış tənqidçi və ədəbiyyatşünası Əli Nazimin rəhbərlik etdiyi Ədəbiyyat sektoru ilə gələcək Ədəbiyyat İnstitutunun əsası qoyulub, 1935-ci ildə bu elmi qurumun bazasında Ədəbiyyat İnstitutu təşkil olunub.

Sovet hakimiyyəti illərində Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ədəbiyyatşünaslıq sahəsində bir sıra mühüm elmi nəticələrin əldə olunduğunu deyən AMEA prezidenti qeyd edib ki, ədəbiyyatşünaslıq elminin ayrı-ayrı sahələri üzrə elmi məktəblər yaradılıb və həmin elmi məktəblərdən bir çoxu bu günə qədər öz yolunu məhsuldar şəkildə davam etdirməkdədir.

Müstəqillik dövrünün Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında xüsusi bir mərhələ kimi qiymətləndirilməli olduğunu deyən natiq bildirib ki, bu dövrdən etibarən bütövlükdə ölkəmizdə, o cümlədən də Akademiya sistemində hakim olan müstəqil dövlətçilik və azərbaycançılıq idealları Ədəbiyyat İnstitutunun da elmi fəaliyyətinin əsaslarını təşkil etməyə başlayıb.

AMEA rəhbəri Azərbaycan ədəbiyyatının daha geniş və sistemli şəkildə, Azərbaycançılıq idealları və milli-mənəvi dəyərlər əsasında araşdırılıb öyrənilməsini təmin etmək məqsədi ilə 2013-cü ildən sonra Ədəbiyyat İnstitutunda zəruri struktur islahatlarının aparıldığını, Nizamişünaslıq, Mühacirət ədəbiyyatı, Mətbuat tarixi və publisistika, Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, Uşaq ədəbiyyatı və digər şöbələrin, Füzulişünaslıq sektorunun yaradıldığını söyləyib.

"Müstəqillik dövründə Azərbaycan ədəbiyyatının dövrləşdirmə

konsepsiyası Ədəbiyyat İnstitutunda müəyyən edilmiş, Milli Elmlər Akademiyası Humanitar və İctimai Elmlər Bölməsinin və Rəyasət Heyətinin iclaslarında, Beynəlxalq Türk Akademiyasında və Tatarıstan Elmlər Akademiyasında keçirilmiş beynəlxalq elmi konfranslarda geniş müzakirə edildikdən sonra qəbul edilmişdir. 2014-2016-cı illərdə keçirilmiş geniş müzakirələrdən sonra Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatının ən qədim zamanlardan başlayaraq bu günə qədər davam etməkdə olan çoxəsrlik inkişaf yolunun mərhələsinin elmi təsnifatı yaradılmışdır. Hazırda institutda artıq 7 cildi nəşr olunmuş "Azərbaycan ədəbiyyatı tarixi" oncildliyi məhz son illərdə hazırlanmış dövrləşdirmə konsepsiyası və elmi cəhətdən müəyyən edilmiş inkişaf mərhələləri əsasında təqdim olunur. Bundan başqa, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının yaradıcılıq metodu məsələsi də Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda nəzəri cəhətdən formalaşdırılmış və elmi dövriyyəyə daxil edilmişdir", - deyə akademik İsa Həbibbəyli bildirib.



Həmçinin dövlət başçısının fevralın 14-də andiçmə mərasimində Türk dünyasıyla əlaqələrin gücləndirilməsi ilə bağlı olaraq qarşıya qoyduğu vəzifələrdən irəli gələrək Ədəbiyyat İnstitutunda türk xalqları ilə geniş elmi-ədəbi əlaqələrin yaradıldığını, müəssisədə fəaliyyət göstərən Əlişir Nəvai Mərkəzi, Mehmet Akif Ərsoy Mərkəzi və hazırda işləri aparılan Məhtimqulu Fəraqi Mərkəzi və institutun Türk xalqları ədəbiyyatı, Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbələrinin səmərəli fəaliyyəti nəticəsində Türk dünyası haqqında sanballı elmi tədqiqatların meydana qoyulduğunu söyləyib.

Yubiley tədbirində Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, TÜRKSOY Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi Sultan Raev, Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, akademik Şuxrat Siracəddinov, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev, Milli Məclisin deputatı Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Azərbaycan Həmkarlar Təşkilatları Konfederasiyasının sədrinin müavini Aqil Dadaşov, Avrasiya Yazıçılar Birliyinin sədri Yaqub Öməroğlu və filologiya üzrə fəlsəfə doktoru Aysel Qurbanova çıxışlarında Ədəbiyyat İnstitutunun tarixi xidmətlərindən və qarşıda duran vəzifələrdən söz açıb, müəssisənin kollektivini təbrik ediblər.

Sultan Raev TÜRKSOYUN "Şərəf" nişanını akademik İsa Həbibbəyliyə təqdim edib. Digər əməkdaşlara Türksoyun 30 illik medalları təqdim olundub.

Sonda bir neçə alim AMEA Rəyasət Heyətinin Fəxri Fərmanları ilə mükafatlandırılıb. Həmçinin İnstitutun tərtib etdiyi bir sıra adlı mükafatlar da əməkdaşlara təqdim olunub.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# ŞAHMAT EHTİRASI

**Hamlet İsaxanlı**

## Giriş

Şahmat bəşər övladının icad etdiyi ən parlaq oyun və mükəmməl sənət növlərindən biridir. Şahmat ehtirası dünyanı bürümüşdür. Şahmata aludə olmaq, şahmata bağlanmaq, şahmatla oturub - durmaq, şahmatla yaşamaq geniş yayılmışdır. Şahmat azarından, şahmat xəstəliyindən söhbət açmaq mümkündür. Şahmat gözəldir, o dərəcədə gözəldir ki, aşiqini sərxoş edir, ağlını başından alır. Nədir bu daha bir ümumdünya cazibə qüvvəsi?!

Bu yazı şahmatın təbiəti, onun elm, sənət və idman tərəfləri, şahmat gözəlliyinin sirrləri, şahmatın meydana çıxması, təkamülü və çağdaş dövrümüzə necə gəlib çıxması haqqında söhbət açır. Şahmatın Hindistanda icad olunması barədə əfsanə və rəvayətlər mövcuddur. *Çaturanqa* adlı dörd tərəfin (oyunçunun) oynadığı oyun İrana və İranətrafı yerlərə keçib, bir qədər sonra iki tərəf, iki rəqib arasında oyuna çevrildi və İslam ölkələrinə *Şətrənc* adı ilə yayıldı. İslam aləmində ərəb, fars və türk əsilli məşhur şahmatçılar meydana çıxdı, dövrün dünya çempionları sayılan bu şahmatçılar, hətta, şahmat taxtasına baxmadan bir neçə rəqiblə oynayıb, qələbə çala bilirdilər. Bu yazıda şahmat-din münasibətləri, şahmatın halal ya haram olması kimi məsələlərə də toxunulur.

İslam dünyasında populyarlaşan şahmat Əndəlüsə, Iberia (İberiya) yarımadasındakı İslam dünyasına, oradan da Avropaya üz tutdu. Şahmat fiqurları Avropa paltarı geydilər, adlar dəyişdi, get-gedə fiqurların hərəkət trayektoriyası uzandı, yeni qaydalar daxil edildi və şahmat daha dinamik oyuna çevrildi. Beləliklə, şahmat Avropada müasir halını aldı.

Bu yazıda şahmat üzrə dünya çempionu və görkəmli riyaziyyatçı Emanuil Lasker`in şəxsiyyətinə, şahmatın təbiəti və inkişafı barədə fikirlərinə yer verilir. Onunla birlikdə şahmatın mürəkkəbliyi və gözəlliyi, şahmatın sistemli biliklərə söykənməsi, şahmatın sənət və idman üzü, şahmatın həyatla bənzərliyi və fərqləri, şahmatdakı sərbəstlik və məhdud çərçivələr barədə müzakirə aparılır. Şahmatın Philidor`dan Paul Morphy və A. Andersen`ə qədər keçdiyi yola, şahmata aid kitab, jurnal, turnir məsələlərinə çox qısa nəzər salınır.

Şahmat və elm mövzusu müzakirə ediləndə həmin an şahmat və riyaziyyat münasibəti yada düşür. Riyaziyyatı da müəyyən qaydaları olan məntiqi oyun kimi şərh etmək olar. Şahmat oyununda hesablama mühüm yer tutur, həmçinin, şahmat partiyasında yaranan

vəziyyət həndəsi xüsusiyyətlə, müxtəlif xətlərlə səciyyələndirilir. Şahmatda həndəsi və ədədi həllə ehtiyacı olan "atın marşrutu", "səkkiz vəzir" kimi məsələlər mövcuddur. Bununla yanaşı, şahmat və riyaziyyat arasında ciddi fərqlər də var. Bu barədə görkəmli riyaziyyatçı G.H. Hardy`nin fikirləri yada salınır, müqayisə üçün *sərbəstlik, psixologiya* və *əhəmiyyət* kimi amillərə müraciət edilir. Riyaziyyatla yanaşı, şahmat alqoritmləri və şahmat kompüter proqramları məsələsinə də toxunulur.

Şahmatçı, adətən, geniş dünyagörüşünə malik olan, mübarizə fəlsəfəsinə, elm və ya sənətə maraq göstərən insandır. Bəzi məşhurların timsalında şahmatçının şahmatdan kənar zəngin dünyası olduğu barədə söhbət açılır. Digər tərəfdən, böyük yaradıcı insanların şahmat dünyası, şahmat sevgisi, şahmat ehtirası barədə misallara baş vurulur. Hər peşə sahəsində, elm və sənətin bütün növlərində, müəllim, tələbə, mühəndis, həkim, musiqiçi, şair və yazıçı, dövlət və siyasət adamları arasında şahmatı bilən, yaxşı şahmat oynayan, şahmat dəlisi olan adamlar çox olmuş, indi də az deyil. Şahmat onların həyatında silinməz izlər buraxmışdır. Bu yazıda belə şəxslərin bəziləri qısaca təqdim edilir. Yaradıcı insanlar şahmat oynamaq və ya şahmatı çox sevməklə kifayətlənməmiş, şahmat və şahmatçılar barədə gözəl əsərlər yaratmışlar. Bu cür insanlardan, rəssam, şair, yazıçı, kinorejissor, onların yaratdıqları əsərlərdən söhbət açılır.

Bu əhatəolunmaz mövzuya toxunarkən özünü məhdudlaşdırmaq, bilik və zövqə uyğun seçim etmək zəruri oldu. Yazı oyun dünyası və şahmat barədə mülahizə ilə başa çatır.

## Şahmat və həyat

Sanki iki ordunun üz-üzə dayandığı, savaşa başladığı, məntiqin və fantaziyanın, dərin strategiya və rəngarəng taktikanın, planlı hücum, müdafiə və blokadanın baş verdiyi, güclü və zəif nöqtələrin əhəmiyyət kəsb etdiyi, bir tərəfin qələbəsi və ya sülh ilə başa çatan şahmat oyunu savaşı modelləşdirən oyundur, idman növüdür, insanları yarışa dəvət edir. Lakin, şahmatın möcüzəsi onun tək gözəl oyun olmasından ibarət deyil. Şahmat yaşamaq uğrunda mübarizəni, qələbə üçün və ya ağır vəziyyətdən çıxış üçün verilən qurbanları, sevinc və kədəri, şöhrətpərəstliyi və ümidsizliyi, hirsi və çılğınlığı, cəsarət və riski, coşqu və hüznü, gülüş və lağı, ümumiyyətlə, bütün təzahürləri ilə dinclik bilməyən həyatı nümayiş etdirir.

Dramaturgiya baxımından şahmat maraqlı giriş ideyaları (debüt) ilə, dinamika və gərgin anlarla doludur, onda faciə və komediya ünsürləri yan-yanadır. Şahmat fiqurlarının fərqli məsafələrə təsiretmə gücü və müxtəlif hərəkət trayektoriyaları oyunu mürəkkəbləşdirir. Şah qiymətlidir, amma öz gücü çox deyil, onu qorumaq lazım gəlir, bəzən, sona yaxın o özü də savaşa qatılıb hünər göstərə bilsə də... Şahmat oyununda, xüsusilə ortada (mittelşpildə) çoxsaylı imkanlarla qeyri-müəyyənlik yanaşı dayanırlar; bu, mürəkkəblik yaradır. Şahmat üzrə dünya çempionu böyük Lasker demişkən, "həyat qeyri-müəyyəndir, xoşbəxtlikdən şahmat da" (*Эмануил Ласкер. Школа шахматной игры. Эксмо, Москва, 2014; с. 126*).

Çoxları *şahmat həyatdır* və ya *şahmat həyata bənzəyir* deyir, həmçinin, həyat şahmatdır deyənlər də var. Şahmat həyatda, siyasətdə, ədəbiyyatda çox istifadə olunan metaforlar qaynağıdır. Müzakirə olunan məsələni bir şahmat termini və hadisəsi dilində ifadə etmək onu çox parlaq şəkildə izah və ya şərh etməyə imkan verir. Zbigniew Brzezinski (1928-2017) böyük Avrasiyanı oyun meydanına – şahmat taxtasına bənzədir və şahmat üzrə qrossmeyster kimi strategiyanın, çoxqat, çoxpilləli gedişləri öncədən görməyin vacibliyini vurğulayır, Amerika Birləşmiş Ştatları kimi aparıcı dövlətin öz birinciliyini qoruması üçün xarici siyasəti və geostrateji düşüncəsinin hansı ardıcıl addımlar atmalı olduğunu təhlil

etməyə çalışır (*Zbigniew Brzezinski. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. Basic Books, New York, 1997*). Bir zaman Azərbaycan Prezidenti vəzifəsini müvəqqəti icra edən professor Yaqub Məmmədov ağır böhran dövrünü (1992-ci il) yaşayan Azərbaycanın vəziyyətini şahmat termini ilə, şahmatda zəif sayılan, məqsədə çatmaq üçün tez-tez qurban verilən piyada (rusca: "peşka") ilə müqayisə etmişdi. O, Azərbaycan kiçik və zəngin ölkədir, böyük dövlətlərin rəqabət meydanına çevrilmişdir, mühüm məsələləri onlar həll edirlər, "biz böyük oyunun peşkalarıyıq" demişdi (*Ягуб Мамедов: «Я не сдавал Шушу», day.az, 25 мая 2005*). Şahmatda populyar olan *qambit* kəlməsi (məsələn, *şah qambiti* və ya *vəzir qambiti*) – oyunun başlanğıcında piyada qurban verib üstünlük alma cəhdi, eləcə də *mat, pat, atla gediş* (hiyləgər gediş), *seytnot* (zeitnot, time trouble), yəni vaxt çatışmazlığı, *suqsvanq* (zugzwang), yəni istənilən hərəkətin vəziyyəti daha da pisləşdirməsi kimi ifadələr siyasətdə və həyatda istifadə olunan populyar metaforlardır.

## Şahmatın vətəni

Şahmatın özü kimi tarixi də çox maraqlıdır. Şahmat tarixinə aid H.J.R. Murray`ə məxsus irihəcmli, sanballı kitab hələ də tayı-bərabəri olmayan əsər sayılır (*H.J.R. Murray. A History of Chess. Oxford University Press, 1913*). David Shenk`in kitabı da yaxşıdır (*David Shenk. The Immortal Game: A History of Chess. Anchor, 2007*).

Şahmatın əcdadı Hindistanda yaranmışdır – bu fikir qəbul olunmuş kimidir. Hardasa 9-cu əsrdə yaşadığı güman edilən şahmatçı əl-Adli`yə görə (*H.J.R. Murray. p. 879*) yaxşı məlumdur ki, üç şey Hindistanda əmələ gəlib, orada yaranıb: *Doqquz rəqəm* (1, 2, 3, 4, 5, 6, 7, 8, 9), *Kəlilə və Dimnə* kitabı və *Şətrənc*. əl-Biruni də Hindistanda oynanılan şahmat və onun qaydaları haqqında məlumat vermişdi (*Alberuni`s India. In two volumes, volume 1. London. 1910. pp. 183-185*). Hindistanda, daha doğrusu, Hindistanın şimalında 5-6-cı əsrlərdə *Çaturanga* (*Çətrəng*) deyilən oyun mövcud imiş, bunun daha qədim zamanlara təsadüf etməsi də istisna olunmur.

Əfsanəyə görə, hökmdar (rac), bu oyun çox xoşuna gəldiyi üçün, şahmatı icad edib ona təqdim edən şəxsi yaxşı mükafatlandırmaq istəmiş və ona "ürəyindən nə keçir, söylə" deyibmiş. İxtiraçının cavabı təbii olaraq, şahı çox təəccübləndirib (anlaşılmaz dərəcədə az və mənasız istəyinə görə): 64 xana var, 1-ci xana üçün 1 buğda dənəsi, 2-ci üçün 2 dənə, 3-cü üçün 2 dəfə artıq, yəni 4 dənə, 4-cü xana üçün 3-cüdəkindən 2 dəfə çox, yəni 8 dənə və beləliklə, hər sonrakı xana üçün əvvəlkindən 2 dəfə çox buğda dənəsi istəyirəm. Bu həndəsi silsilənin cəmi 20 rəqəmli çox böyük bir ədəddir: 18.446.744.073.709.551.615 = 1+2+4+8+16+32+64+… Yer üzündə bu qədər buğda dənəsi yoxdur! Dante öz "İlahi komediya"sında bu məsələni, hər xanada iki dəfə artırmağın çox böyük rəqəm əmələ gətirdiyini qeyd etmişdi (*Dante. Divine Comedy. Canto 28, Line 91*):

*And they so many were, their number makes,*
*More millions than the doubling of the chess.*

*Çaturanqa* sözü sanskritcədə *dörd dəstə* mənasını verir. Kvadrat şəkilli 64 xanalı taxta (yaxud mərmər, sümük və ya başqa material) üzərində dörd küncün hər birində dörd iri fiqur (şah, döyüş arabası, at və fil) və onların qarşısında dörd kiçik fiqur (*"piyada"*) düzülür və dörd oyunçu zər atmaqla bu fiqurları müəyyən qaydalara uyğun olaraq hərəkət etdirirlərmiş. Hindistanda ordunun tərkibi süvarilər, fillər, döyüş arabaları və piyadalardan ibarət olmuş və bu fakt şahmatın savaş ideyasından doğulduğunu açıq-aydın göstərir.




**Şəkil 1.** *Çaturanqa*
Qələbə rəqibin bütün fiqurlarını məhv etməklə əldə edilirdi.

## Şətrənc

Bu oyun 6-cı əsrin ikinci yarısında, Sasani hökmdarı 1-ci Xosrov Ənuşirvan`ın dövründə (531-579) İrana yol açmışdır (göndərilmiş və ya gətirilmişdir). "Çaturanqa" sözü farscada (pəhləvicədə) "çətrəng"ə çevrilmiş və bu, ərəbcədə "şətrənc" şəkli almışdır. Gürcü dilində şahmata "çadraki" deyilir; bu, Gürcüstana şahmatın birbaşa İrandan gəldiyini göstərir. Türkiyədə şahmata bu gün də şatranc deyilir, Azərbaycanda Sovet dövründə *şətrənc* sözü *şahmat* sözü ilə əvəz olunmuşdur.

Vəzir (müşavir) həmişə şahın yanında olduğu üçün uzağa gedə bilməzdi, çəpəki və yalnız bir addım gedirdi. Bu baxımdan qədim şətrəncdə uzağa gedə bilən döyüş arabası (indiki top) vəzirdən güclü idi. Döyüş arabasına sanskritcədə *ratxa, ratha* və ya *raxta* deyilirdi, farscada bu bir qədər sonra *rüx* və ya *rux* şəkli aldı. Rüx əfsanəvi güclü simurq quşudur, bu söz, həmçinin, üz, yanaq mənası verir. Çətrəngdə (və uzun müddət şətrəncdə – şahmatda) döyüş arabası (rüx) düz və uzağa hərəkət edə bilir, fil çəpəki iki addım gedir (fiqurun üstündən keçə bilir), at bügünkü kimi hərəkət edirdi.

Hindistandan İrana gələn və Orta Asiya, Qafqaz və ərəb ölkələrində yayılan şahmat (çətrəng) burada dörd adam arasında deyil, iki adam arasında oynanılırdı. Fiqurlar və piyadalar üz-üzə dayanan iki əks tərəflərdə yerləşdirilirdi. Oyunu kimin başlaması və hər gedişdə hansı fiqurla oynanılması atılan zərlə müəyyən edilirmiş. Buna zərli (zər ilə) şahmat demək olar. Çox güman ki, bir müddət sonra bəxtə, şansa deyil, zəka və xəyal gücünə, xalis qabiliyyətə arxalanmaq daha cazibəli oldu, yəni, zərsiz oyuna keçildi (zər atmaq nərdlə yoluna davam etdi). Üstəlik, 64 xanada düzülüş bugünkü şahmata xas olan şəkil aldı.

**Qeyd.** *O zamanlar daha çox, məsələn, 100 xanalı şahmat da olub, lakin, çox yaşamayıb.*

Qələbə düşmənin bütün qüvvələrinin məhv edilməsi və ya şahın mat edilməsi, yəni, əsir alınması nəticəsində əldə edilirdi. Yerdə Tanrının nümayəndəsi kimi qələmə verilən şah öldürülə

bilməzdi, onu əsir almaqla savaş əsir alan tərəfin qələbəsi ilə bitirdi. Bütün bu islahat, yəqin ki, İran və İran ətrafında başlandı və İslam dünyasında davam etdi (dəqiq tarix və coğrafiya tam məlum deyil).

## İslam aləminin halal şahmatı

İslam dünyasında şahmat (şətrənc) geniş yayıldı və sevildi. Xəlifə Harun ər-Rəşid şahmat oynamağı sevirdi. Hətta, şahmat taxtasına baxmadan eyni zamanda bir neçə rəqiblə oynayan və hamısına qalib gələnlər də vardı! Bu sahədə ilk tanınan şahmatçı görkəmli fiqh alimi Səid ibn-Cübeyr (665-714) idi. əl-Adli (9-cu əsr), məşhur həkim, kimyaçı və filosof Əbu Bəkr Mühəmməd ibn Zəkəriyyə əl-Razi (?-925), əl-Suli və ya əs-Suli (10-cu əsr), onun tələbəsi Leylac (Ladlac, 10-cu əsr), Teymurləng sarayına yaxın olan Xacə Əli Təbrizi Şətrənci (14-15-ci əsrlər) məşhur şahmatçılar idi, onların hər birini öz dövrünün dünya çempionu saymaq olar. əl-Razi xəlifə əl-Mütəvəkkil`in hüzurunda artıq yaşlı olan məşhur şətrənc ustası əl-Adli ilə oynamış və qalib gəlmişdi. Onların hər biri şahmata baxmadan çox rəqiblə oynaya bilirdi və hər biri şahmat haqqında kitab yazmışdır. əl-Razinin belə kitabı olduğu barədə İbn əl-Nadim (10-cu əsr) öz məşhur "Kitab əl-Fihrist"ində xəbər verir. Bu məşhurlar şahmatçıların ən yüksək dərəcəsi sayılan *aliyə* (çağdaş qrossmeyster – belə demək olar) titulunu almış az sayda şahmatçılar sırasında olmuşlar; deyilənə görə, eyni dövrdə *aliyə* şahmatçıların sayı üçü keçməzmiş. Türk əsilli əl-Suli İslam dövrünün əfsanəvi, bənzərsiz şahmatçısı sayılır. O, həm də görkəmli filoloq idi. Ona aid edilən bir şahmat məsələsi min ildən artıq həll olunmamış qalmışdı; bu məsələni qrossmeyster Yuri Averbax (1822-2022) həll etdi. əl-Suli`nin çətin vəziyyətdə qurbanlar verməklə rəqib şahını mat edən *Dilaram* adlı şahmat miniatürü məşhur olub. əl-Suli`yə məxsus olduğu güman edilən bu şahmat məsələsi ("mənsubə") barədə əfsanə kimi danışılır. Şahmat ehtirasına qapılmış bir kübar şəxs güclü rəqibi ilə şahmat yarışında uğursuz olmuş, sonda öz gözəl arvadı Dilaram`ı mərcə qoymuş, bu oyunda da ümidsiz vəziyyətə düşmüşdü.




**Şəkil 2.** *Dilaram matı*

Gediş növbəsi bu şəxsdə olsa da, rəqibin onu mat edəcəyini görüb təslim olmaq istəyərkən Dilaram "məni yox, iki topunu qurban ver" deyə çıxış yolu göstərmiş və ümidsizlik qələbə ilə əvəz olunmuşdur:

Th8+ Ş×h8. 2. Ff5+ Şg8. 3. Th8+ Ş×h8. 4. g7+ Şg8. 5. Ah6 #

Əli Şətrənci öz həyat tarixçəsində yazır: "Çox vaxt şahmat taxtası arxasında bir partiya oynayarkən eyni zamanda taxtaya baxmadan dörd rəqib əleyhinə daha dörd partiya oynayırdım və oyun zamanı dostlarımla rahatca söhbətə davam edirdim. Hər şeyə qadir Allahın xeyir-duasi ilə həmişə bütün rəqiblərimə bir-bir qalib gəlirdim" (*Г.С. Александрович, Е.С. Столяр. Многоликая Каисса. Москва, Физкультура и спорт, 1989; с.178*).

İslamın dörd əsas sünni məzhəb (fiqh) başçılarından ikisi – Malik ibn Ənəs (711/12-795) və Əhməd ibn Hənbəl (780-855) şahmatı *haram* sayırdı. Digər iki başçıdan biri şahmata qarşı xoşqılıqlı olmuş, o biri isə şahmatı sevmişdir. Əbu Hənifə`yə (699-767) görə şahmat haram deyil, amma bəyənilmir (*məkruh*); o, nərdi şahmatdan daha yaramaz oyun hesab edirdi. Əbu Hənifə xalq içində şahmat oynanılması və oyuna tamaşa edilməsinə yaxşı baxırdı. əl - Şafii (767-820) isə şahmatı bəyənir, onun savaş rəmzi olduğunu deyir, onu savaş məşqi kimi qiymətləndirirdi. O, şahmatı nə məqsədlə oynamanın mühüm olduğunu vurğulayırdı. Püşk atmaqla, pulla oynamaq olmaz, oyun ibadətə mane olmamalıdır. əl-Şafii özü şahmat ehtirasına qapılmış oyunçu idi (*Murray. p. 189-190*).

Din xadimləri (İslamda və Xristianlıqda) bir ara şahmatı qadağan etməyə çalışsalar da, bu mümkün olmadı. Qəribə hərəkətləri ilə məşhur olan Misir hökmdarı, Fatimi xəlifə əl-Hakim (985-1021) şahmat oynamağı qadağan edən əmr vermişdi. Səhl ibn Əbu Səhl`in (?-1013) şahmat barədə fikri maraqlıdır: "Əgər var-dövlətə zərər dəymə qorxusu və ibadətə etinasızlıq yoxsa, onda iki dostun şahmat oynaması xoş məşğuliyyətdir" (*Адам Мец. Мусульманский Ренессанс."Наука", Москва, 1973; с. 323*).

Şərq ədəbiyyatı əlkimya, şətrənc və digər maraqlı fəaliyyət sahələrindən istifadə edən metaforlarla çox zəngindir. Bəzən onların anlaşılmasında qarışıqlıq da yarana bilir. "Azərbaycanda şahmatın tarixi" kimi dəyərli kitabda müəllif – Şəhriyar Quliyev şahmat tarixi və mədəniyyətini öyrənərkən orta əsrlərdən başlamış 20-ci əsrin əvvəllərinə qədər yazıb-yaratmış Azərbaycan şairlərinə müraciət etmiş, xeyli zəhmət çəkmişdir (*Şəhriyar Quliyev. Azərbaycanda şahmat tarixi. Bakı, 2012; s. 93-259*). Nizami Gəncəvi`nin "Yeddi gözəl"inin ilk səhifələrində, "Peyğəmbərə sitayiş" bölümündə 71-ci beyt (qoşa misra) sətri (filoloji) tərcümədə belə səslənir:

*O, Yer üzündə Allahın naibi idi,*
*O, şahların hamısına mat verən idi.*

Nizami nə demək istəyir? Allahın naibi, elçisi, vəkili olan peyğəmbər bütün şahlara qalib gəldi, şahmat termini ilə desək, onları mat etdi. Şair bu misraların arxasınca peyğəmbərin ona qarşı qalxanları yerə vurması, həm də yıxılanların əlindən tutmasından və ya düşmənə qarşı qılıncını qaldırması, bir tərəfdən də yaralara məlhəm qoymasından danışır, "Tanrı onu zəmanə [adamları içindən] seçib" deyir (*Nizami Gəncəvi. "Yeddi gözəl", filoloji tərcümə. "Elm", Bakı, 1983; 78-ci beyt*). Ş. Quliyev bu misranı poetik tərcümədən götürdüyü üçün sözlərdə bir az fərq olsa da, məna dəyişmir. Amma, o, mat verənin peyğəmbər deyil, Allah olduğunu düşünmüşdür: "Allah yer üzündəki bütün padşahları mat edib, özünə yalnız peyğəmbəri vəkil təyin etmişdir" (*Şəhriyar Quliyev, s. 146*). Ş. Quliyev buna, yəni, Allahın şahmat oynamasına təəccüblənmiş və "Bədii ədəbiyyatda Allahın da *şahmat oynaması, bütün şahları mat etməsi* kimi bədii lövhələrə ilk dəfə biz Nizami`də təsadüf edirik" fikrinə gəlib çıxmışdır. Şahmat oynamaq, mat etmək, zər atmaq kimi fikirləri Tanrı`ya aid etmək təbii görünmür... Yeri gəlmişkən, Einstein kvant mexanikasının statistik xarakteri ilə barışmayanda, bunu "Tanrı zər atmır" kimi ifadə etmişdi.

## Şahmat Əndəlüs və Avropaya yayıldı

Şahmat Avropaya əsasən Əndəlüs vasitəsilə, qismən də İtaliya və Siciliya yolu ilə keçdi. İspan debütü, İtalyan debütü, Siciliya müdafiəsi Avropada meydana çıxan (bu gün də çox populyar olan) ilk şahmat debütləri oldu. Şərqi İslamdan çıxıb (əslində qaçıb) Əndəlüsə üz tutan böyük musiqiçi Ziryab (?789 - ?857) 822-ci ildə öz yaxınları və yaradıcı heyəti ilə Əndəlüsə gəldi. Əndəlüsün mədəni həyatında böyük rol oynayan Ziryab özü ilə şahmat da gətirmişdi. Kordoba (Cordoba) əmiri 2-ci

Əbd-ül-Rəhman (792-852) şahmat oynamağı öyrəndi, şahmatı sevdi. Onun davamçısı əmir 1-ci Məhəmməd (823-886) isə tam şahmat vurğunu oldu. Deyilənə görə, əndəlüslü şair Məhəmməd ibn Ammar (1031-1086) həm də güclü şahmatçı idi və o, Leon və Castile kralı 6-cı Alfonso (?1040-1109) ilə şahmat partiyasını udmuş və bununla Seville əmirliyini istiladan qorumuşdu (təbii ki, yalnız bir müddət).



**Şəkil 3.** *Wikipedia: 13-cü əsr xristian əlyazmasından: müsəlman və xristian şahmat oynayırlar. (Bax: Bernard Lewis. Islam and the West (İslam və Qərb). Müdrik Alfonso tərəfindən Libro de los juegos - dan miniatür)*

Şahmatın Avropaya yayılması işində, yəqin ki, Xaç (Səlib) savaşları da rol oynadı.

Avropada fil yoxdu – nə orduda, nə də təbiətdə. Əvəzində, qəribə səslənsə də, kilsə vardı (və o, güclü idi). Avropada fili din xadimi yepiskopla (bishop) əvəz etdilər. Şərqdə isə, o cümlədən, Rusiyada şahmat fili yaşadı, hərçənd ki, Rusiya ərazisində də filə, Yer üzərindəki bu ən böyük heyvana rast gəlinmirdi. Elə ki, zooparklar təşkil olundu, təbiətdə fillərin yaşamadığı ölkələrdə də filləri gözlə görmək imkanı yarandı.

Avropada döyüş arabası qala ilə, rəmzi olaraq qala sütunu ilə əvəz olundu (*rook*, bu, şərqdəki rüx/rux - döyüş arabası sözünə də bənzədi). Türkiyədə bu gün də topa *kale* deyilir (Osmanlı türkləri tarixdə də döyüş topuna kale demişlər?!). Rusiya və onun yaxın ətrafındakı yerlərdə qala əvəzinə *top* sözü daxil edildi; savaşda toplar mühüm rol oynayırdılar. Avropalılar şahın, monarxın yanında vəziri deyil, kraliçanı, "birinci ledi"ni qoydular; kraliçə hər zaman kralın yanında deyilmi?! Sarayda, həyatda, intriqalarda və dolayı yolla olsa da, savaşda xanımların rolu böyükdür, onlar bir sıra hallarda baş rol oynaya bilirlər... Şahmat taxtasında xanaları iki fərqli rəngə, əsasən ağ və qara və ya açıq və tünd rənglərə boyadılar.

11-ci əsrdə Avropada yüksək zümrələrdə şahmat oynamağa başladılar, 12-ci əsrdə isə şahmat geniş yayıldı. Şərqdə kübarların təhsil və təlimində olduğu kimi, Avropada da cəngavərlər oxumaq, yazmaq və hesabla yanaşı bilməli, öyrənməli olduqları bacarıq və qabiliyyətlər arasında şahmat da vardı; öyrənməli digər qabiliyyətlər, əsasən, at sürmə, ox atma, ovçuluq, üzmə, yumruqlaşma və şeir yazma idi.

15-ci əsrin sonlarında və 16-cı əsrin əvvəllərində Avropada şahmat qaydalarının dəyişməsi şahmatı daha dinamik və sürətli oyuna çevirdi. Vəzirin bir və filin iki xana deyil, uzun gedə bilmələri, qala qurmaq və keçiddə vurmaq kimi qaydalar strategiya və taktikanı mühüm dərəcədə inkişaf etdirdi. Qalaqurma əməliyyatı şahı qalanın içinə aparmaq, qalada qorumaq deməkdir. Qalaqurma və pat şahmat tarixində oyunun təkmilləşdirilməsi yolunda daxil edilib, yəni, həyatdan gəlməyib. Pedro Damiano və Ruy Lopez'in şahmat dərslikləri (1512, 1561) əsas Avropa dillərinə tərcümə olunub şahmatın öyrənilməsi və yayılmasında böyük rol oynadılar.

*(Davamı var)*




# "DUBNA" HƏFTƏLİK QƏZETİNDƏ XƏZƏR UNİVERSİTETİ NÜMAYƏNDƏ HEYƏTİNİN BNTİ-YƏ İŞGÜZAR SƏFƏRİ BARƏDƏ MƏQALƏ DƏRC EDİLİB

# KHAZAR UNIVERSITY DELEGATION'S BUSINESS VISIT TO JINR COVERED IN 'DUBNA' WEEKLY

Rusiya Federasiyasının Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) "Dubna" həftəlik qəzetinin 01 fevral 2024 cü il tarixli 4 nömrəli sayında Xəzər Universiteti nümayəndə heyətinin instituta iki günlük işgüzar səfəri barədə məqalə və foto dərc edilib.

Məqalədə Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının başçılıq etdiyi nümayəndə heyətinin (tərkibə Fizika və elektronika departamentinin müdiri Dr. Fəridə Tatardar və biotibbi,tibbi-kimyəvi sahə üzrə professor, universitetin tədqiqat qrupunun rəhbəri Südabə Davaran daxil idi) BNTİ-nin direktoru Qriqoriy Trubnikov və digər rəhbər əməkdaşlarla, institutun laboratoriyalarında keçirdiyi görüşlər və aparılmış müzakirələrdən bəhs olunub. Qeyd edilib ki, institutun direktorluğu ilə görüşdə Azərbaycan və BNTİ arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində perspektivlər müəyyən edilib.

Məqalədə vurğulanır ki, müzakirə prosesində Prof.Akad. Hamlet İsaxanlının söylədiyi kimi, səfərin əsas məqsədi Azərbaycan Respublikasının elm ocaqları ilə BNTİ arasında elmi əlaqələrin möhkəmləndirilməsidir.

An article and a photo detailing the two-day business trip undertaken by the Khazar University delegation to the Joint Institute for Nuclear Research of the Russian Federation (JINR) was published in issue No. 4 of the "Dubna" weekly newspaper of the institute dated February 01, 2024.

The article talks about the meetings and discussions held by the delegation led by Prof. Acad. Hamlet Isakhanli, chairman of the Board of Directors and Trustees of Khazar University (Dr. Farida Tatardar, head of the Department of Physics and Electronics and Sudaba Davaran, professor of biomedical, medical and chemical fields, head of the university's research group) with JINR director Grigory Trubnikov and other senior employees in the laboratories of the institute. It was noted that in the meeting with the directorate of the institute, perspectives were determined in the direction of enhancing mutual relations between Azerbaijan and JINR.

The article underscores Prof. Acad. Hamlet Isakhanli's remarks during the discussions, wherein he said that the primary objective of the visit is to fortify scientific ties between the scientific institutions of the Republic of Azerbaijan and JINR.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ AZƏRBAYCAN-QAZAXISTAN EKSPERT ŞURASININ İCLASINDA

## POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD AT AZERBAIJAN-KAZAKHSTAN EXPERT COUNCIL MEETING

Martın 13-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirliyi ilə birgə təşkil etdiyi Azərbaycan-Qazaxıstan Ekspert Şurasının iclasında Xəzər Universitetini Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev təmsil edib.

İclasda azərbaycanlı və qazaxıstanlı rəsmilər və ekspertlər iki ölkə arasındakı münasibətlərin inkişafına dair fikir mübadiləsi apardılar. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Bakıya son səfərində Qarabağda olması, Füzuli şəhərində Qazaxıstan xalqı adından hədiyyə olaraq inşa edilmiş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimi kimi məsələlər müzakirə edilib.

Bu görüş iki ölkə arasında təşkil edilən sayca üçüncü ekspert şurası idi.

On March 13, at the meeting of the Azerbaijan-Kazakhstan Expert Council, orchestrated by the Center for Analysis of International Relations in collaboration with the Extraordinary and Plenipotentiary Embassy of Kazakhstan in Azerbaijan, Khazar University was represented by Assoc. Prof. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy. Azerbaijani and Kazakh officials, alongside experts, engaged in discussions regarding the advancement of bilateral relations. Among the topics discussed were President of Kazakhstan's recent visit, including matters such as the Karabakh visit and the opening of a planned school in the region.

This gathering marked the third convening of the expert council between the two nations.

## "YAŞIL İQTİSADİYYATA KEÇİDDƏ YAŞIL MƏŞĞULLUĞA AZƏRBAYCAN ƏMƏK BAZARI KONTEKSTİNDƏ BAXIŞ" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "GREEN EMPLOYMENT IN TRANSITION TO GREEN ECONOMY IN THE CONTEXT OF AZERBAIJAN LABOR MARKET"

Martın 13-də İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə İstanbul Universitetində "Əmək iqtisadiyyatı və sənaye münasibətləri" ixtisası üzrə təhsil alan doktorantura tələbəsi Əli Rzayev İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin tələbələri üçün "Yaşıl

On March 13, facilitated by the Department of Economics and Management, Ali Rzayev, a doctoral candidate specializing in "Labor Economics and Industrial Relations" at Istanbul University, delivered a presentation to students at the Graduate School of Economics and Management. The speech centered around "Green Employment in

iqtisadiyyata keçiddə yaşıl məşğulluğa Azərbaycan əmək bazarı kontekstində baxış" mövzusunda seminar keçirib.

O, öz çıxışında yaşıl iqtisadiyyata keçidin vacibliyindən söz açıb. Bildirib ki, qlobal iqtisadiyyat dövründə təbii ehtiyatların həddindən artıq istifadə edilməsi yaşıl iqtisadiyyatın önəmini artırıb. Əli Rzayev sonra yaşıl iqtisadiyyata keçidin yaşıl məşğulluğa təsirindən bəhs edib. Natiq Azərbaycanın əmək bazarında yaşıl məşğulluqla bağlı əngəllərin aradan qaldırılmasının, bu istiqamətdə müxtəlif işlərin aparılmasının vacibliyini də vurğulayıb.

Əli Rzayev çıxışının yekununda yaşıl iqtisadiyyat və əmək bazarı haqqında müəyyən statistik məlumatları tələbələrlə bölüşüb.

Transition to Green Economy in the Context of Azerbaijan Labor Market".

During his address, he discussed the significance of shifting towards a green economy. He emphasized how the excessive utilization of natural resources globally has heightened the significance of adopting green economic practices. Ali Rzayev then addressed the effects of transitioning to a green economy on employment in environmentally sustainable sectors. The speaker underscored the necessity of eliminating barriers to green employment within Azerbaijan's job market and implementing initiatives to facilitate this transition.

Concluding his speech, Ali Rzayev presented students with statistical data concerning both the green economy and the labor market.

## "*AZƏRBAYCAN MİLLƏTÇİLİYİ*" MONOQRAFİYASI İLƏ BAĞLI ONLAYN MÜHAZİRƏ

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr.Orxan Vəliyev 2024-cü il martın13-də İstanbulda yerləşən İbn Haldun Universiteti Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin müdiri Prof. Yaşar Sarının dəvəti ilə ikinci nəşri 2023-cü ilin sonunda Türkiyədə nəşr olunan "*Azərbaycan Millətçiliyi*" monoqrafiyası ilə bağlı onlayn mühazirə oxuyub.

Qeyd edək ki, Dr.Orxan Vəliyevin kitabı çarlıq dövründə Azərbaycanın millət və dövlət inşa prosesinin tədqiq edildiyi "Çarlıq dövrü Azərbaycanın millətləşmə prosesi: 1850-1920" mövzusunda yazılmış dissertasiya əsasında çap edilib.

Departament müdiri mühazirədə Azərbaycanın millətləşmə və dövlətləşmə təcrübəsini izah etməklə yanaşı, 2020-ci ildə əldə edilən zəfərin milli kimlik və dövlət inşasının tamamlanmasında həlledici bir mərhələ olduğunu xüsusilə vurğulayıb. Mühazirə sual-cavabla tamamlanıb.




## ONLINE LECTURE ON "*AZERBAIJANI NATIONALISM*" MONOGRAPH

On March 13, Dr. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy, delivered an online lecture on the monograph "*Azerbaijani Nationalism*" This monograph, which had its second edition republished in Türkiye at the end of 2023, was presented at the invitation of Prof. Yashar Sarin, the head of the Heydar Aliyev Center for Eurasian Studies at Ibn Khaldun University in Istanbul.

It is noteworthy that Orkhan Valiyev's book originated from a dissertation focusing on the "Nationalization Process of Tsarist Period Azerbaijan: 1850-1920," examining Azerbaijan's nation and state-building efforts during the Tsarist era. In addition to discussing Azerbaijan's journey of nationalization and statehood, the department head underscored that the victory achieved in 2020 marked a crucial milestone in the nation's identity formation and state-building process. The lecture concluded with a session of questions and answers.

*https://www.youtube.com/watch?v=mZJ8Ch_Yz5k&t=14s*

# NƏZƏRİ FİZİKA ELMİ - TƏDQİQAT MƏRKƏZİNİN NÖVBƏTİ SEMİNARI

Martın 14-də Xəzər Universitetinin Nəzəri Fizika Elmi-Tədqiqat Mərkəzinin tədqiqatçısı Dr. Şəhriyar Cəfərzadənin "50 yaşlı kvant xromodinamikası və mezonlar" mövzusunda seminarı keçirilib.

Seminarda Xəzər Universitetinin müəllim-profes-




*Şəhriyar Cəfərzadə* *Fəridə Tatardar*

sor heyəti, tələbələri və tədqiqat mərkəzinin əməkdaşları iştirak ediblər.

Mərkəzin direktoru Şahin Məmmədov məruzəçini təqdim edib: Şəhriyar Cəfərzadə 2019-2023 - cü illərdə doktorantura təhsilini Polşanın Kielce şəhərində yerləşən Jan Kochanowski Universitetində Prof. Dr. Francesco Giacosa`nın rəhbərliyi ilə davam etdirib. 2022-ci ildə Amerikanın Nyu-York ştatında yerləşən Brookhaven National Labaratoriyasının Nəzəri Nüvə fizikası Laboratoriyasında 1 aylıq təcrübə keçib. Hazırda əsas elmi maraq dairələri nəzəri yüksək enerjilər fizikası və nəzəri nüvə fizikasıdır. Sonra o, sözü Şəhriyar Cəfərzadəyə verib. Seminar iştirakçıların müzakirələri ilə davam edib.

Yekunda Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar məruzəçi Dr. Şəhriyar Cəfərzadəyə sertifikat təqdim etdi.

# NEXT SEMINAR OF THEORETICAL PHYSICS SCIENTIFIC RESEARCH CENTER

On March 14, a seminar on "50-Year-Old Quantum Chromodynamics and Mesons" was held by Dr.Shahriyar Jafarzadeh, researcher of the " Theoretical Physics Scientific Research Center" of Khazar University.

The seminar was attended by faculty members, professors, students, and staff from Khazar University's research center. Shahin Mammadov, the center's director, introduced the speaker, highlighting that Shahriyar Jafarzadeh pursued his doctoral studies from 2019 to 2023 at Jan Kochanowski University in Kielce, Poland, under the supervision of Prof. Dr. Francesco Giacosa. In 2022, he completed a one-month internship at the Theoretical Nuclear Physics Laboratory of Brookhaven National Laboratory in New York, USA. Currently, his primary areas of scientific interest include theoretical high-energy physics and theoretical nuclear physics. Following the introduction, Shahriyar Jafarzadeh took the floor, and the seminar proceeded with participant discussions

At the end of the seminar, Farida Tatardar, the head of the Physics and Electronics Department, presented a certificate to Dr. Shahriyar Jafarzadeh.

# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİNİN AÇIQ DƏRSLƏRİ



# OPEN CLASSES BY THE DEPARTMENT OF LANGUAGES AND LITERATURES LECTURER

Martın 12-14-də Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr.Sevinc Qəmbərovanın "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə "Nitqin təmizliyini pozan amillər və onlarla mübarizə yolları" mövzusunda açıq dərsləri təşkil olunmuşdur.

Dərslərdə tələbələr qruplar şəklində nitqin təmizliyini pozan amilləri araşdırmış, mövzu ilə bağlı səhnəciklər oynanılmış, rəsmlər, əyani vəsaitlər, video və slaydlar nümayiş etdirilmişdir.

From March 12 to 14, Dr. Sevinj Gambarova, a lecturer at the Department of Languages and Literatures, conducted open classes focusing on "Business and Academic Communication in Azerbaijani." The topic covered "Factors Disrupting Speech Clarity and Strategies to Address Them."

During the classes, students worked in groups to explore factors that violate the purity of speech, enacted scenes related to the theme, and utilized drawings, visual aids, videos, and slides for illustration.

# "AZƏRBAYCANDA İNSTİTUSİONAL REPOZİTORİYALAR ŞƏBƏKƏSİ VASİTƏSİLƏ TƏDQİQAT POTENSİALININ İNKİŞAFI" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏLİM

# TRAINING WITHIN " DEVELOPING RESEARCH CAPACITY THROUGH INSTITUTIONAL REPOSITORY NETWORK IN AZERBAIJAN" PROJECT

Xəzər Universitetinin koordinatoru olduğu Avropa İttifaqının "Erasmus +K2" proqramı çərçivəsində maliyyələşdirilən "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişafı" (DIRNA) adlı layihənin ikinci təlim treininqi İtaliya Respublikasının L'Aquila Universitetində keçirilib. Türkiyə, İtaliya və Finlandiya universitetlərinin təcrübəsi əsasında Azərbaycanın 8 ali təhsil müəssisəsində hamıya əlçatan institusional repozitoriyalar (elektron arxivlər) şəbəkəsinin yaradılması məqsədi daşıyan layihə çərçivəsindəki təlim martın 12-14-də baş tutub.

Təhsil turunda Xəzər Universiteti ilə bərabər 7 tərəfdaş Azərbaycan universiteti (Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan

The second training session of the " Developing Research Capacity through Institutional Repository Network in Azerbaijan " (DIRNA) project, funded by the European Union's "Erasmus + K2" program and coordinated by Khazar University, took place at L'Aquila University in Italy. From March 12 to 14, the training, drawing on the experiences of universities in Türkiye, Italy, and Finland, aimed to establish a network of institutional repositories (electronic archives) accessible to all within 8 higher education institutions in Azerbaijan.

In addition to Khazar University, seven partner universities in Azerbaijan Baku State University, Azerbaijan Technical University, Academy of the State Customs Committee, Ganja State University, Nakhchivan State University, Lankaran State



*Soldan beşinci:Aytac Misgərli*

Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti) iştirak edib. Xəzər Universitetini tədbirdə Kitabxana İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytseva və direktor müavini Aytac Misgərli təmsil ediblər.

Təlimin ilk günü L'Aquila Universitetinin Beynəlxalq əlaqələr üzrə rektor məsləhətçisi Anna Tozzi qonaqları salamlayıb, sonra universitetin kitabxana direktoru Dr. Grazia Di Bartolomeo universitet kitabxanasının universitetdə təhsil və tədqiqatın inkişafında rolu haqqında məlumat verib.

Təlimin ikinci günü universitetin tədqiqat informasiya sistemində IRIS açıq girişli resurslar haqqında təqdimatlar və müzakirələr aparılıb. Sonra universitetin kitabxana filiallarına turlar təşkil olunub.

Son gün açıq məlumat (Open Data) haqqında təqdimat keçirilib və bütün keçirilən təlimlərin müzakirəsi aparılıb.

Ümumilikdə təlim dövrü ərzində kitabxana sistemi, onun fəaliyyəti, missiyaları, saytı, açıq resursları və abunə bazaları, kitabxananın repozitariya sistemi haqqında təqdimatlar, həmçinin ümumilikdə İtaliya kitabxanalarının onlayn şəbəkələri ilə bağli çıxışlar dinlənilib.

University, and Mingachevir State University participated in the educational program. Tatyana Zaytseva, the director of the Library Information Center, and Aytac Misgarli, the deputy director, represented Khazar University at the event.

On the first day of the training, L'Aquila University Rector's Adviser on International Relations Anna Tozzi welcomed the guests, then University Library Director Dr. Grazia Di Bartolomeo elucidated the pivotal role of the University Library in fostering the institution's educational and research endeavors.

On the second day of the training, presentations and discussions were held about IRIS open access resources in the research information system of the university. Later, tours were organized to the library branches of the university.

On the last day, a presentation on Open Data was held and all trainings were discussed. In general, the training period encompassed presentations covering various aspects of the library system, including its activities, missions, website, open resources, subscription databases, repository system, and online networks of Italian libraries.

## DEPARTAMENT MÜDİRİ XARİCİ DİL MÜƏLLİMLƏRİNİN HƏMRƏYLİK FORUMUNDA

Martın 17-də İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova Təhsil Forumu Sosial Platformasının təşkil etdiyi Xarici dil müəllimlərinin həmrəylik forumunda əsas natiq kimi Xarici dillərin multikultural cəmiyyətdə rolu mövzusunda çıxış edib. 300-dən çox xarici dil müəlliminin iştirak etdiyi forum Pullman otelinin konfrans zalında keçirilib. Forumda İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri Şəhla Gəməri, Nərmin Əskərova, Sevda Əsədova, Jalə İsmayılova, Nərgiz Məmmədova da iştirak ediblər.

## DEPARTMENT HEAD ADDRESSES FOREIGN LANGUAGE TEACHERS SOLIDARITY FORUM

On March 17, the head of the English Language and Literature Department Milana Abbasova, Ph.D. in Philology, delivered a keynote speech on The Role of Foreign Languages in a Multicultural Society at the "Foreign Language Teachers Solidarity Forum"organized by the Education Forum Social Platform. The event, which was attended by more than 300 foreign language teachers, took place at the Pullman Hotel conference hall. The instructors of English Language and Liiterature Department Shahla Gamari, Narmin Askarova, Sevda Asadova, Jala Ismayilova, Nargiz Mammadova also participated in the forum.

# "XƏZƏR"İN TƏLƏBƏSİNİN MƏQALƏSİ AFRİKA JURNALİSTLƏR KONQRESİNİN BEYNƏLXALQ JURNALINDA



CAJ INT'L MAGAZINE

## Raising The Posters of President Ilham Aliyev Of Azerbaijan



By Shahin Aliyev

It is a matter of pride to raise the posters of President of Azerbaijan Ilham Aliyev and "Iron Fist" at the action in New Caledonia.

It should be emphasized that Azerbaijan attaches special importance to the development of cooperative relations and friendly relations with African states and the African Union, and supports the activities carried out by the countries of the continent for the sake of ensuring the sustainable development of African states. In this context, Azerbaijan's presidency of the Non-Aligned Movement, as

5

CAJ INT'L MAGAZINE

well as humanitarian and developmental aid to African countries during the pandemic, 53 out of 54 African countries have benefited from our country's aid in different years.

Due to Azerbaijan's support for the granting of independence to French overseas territories, there are cases of waving the Azerbaijani flag in the actions for independence in New Caledonia. At the same time, on October 21, 2023, a meeting was held between the delegation of New Caledonia, including the Deputy General Secretary of the Caledonian Unity Party, David Vanalee, to the National Assembly.

*Shahin Aliyev is the chairman of "Eternal Union" YPU in Azerbaijan*

Mr. President Ilham Aliyev spoke about the growth of neo-colonialism tendencies in the example of France. France does not respect the sovereignty of Mayotte Island of the Comoro Islands in the modern world, as well as the freedoms and liberties of the people of New Caledonia, as well as the people living in other overseas communities and territories.

This country should apologize to Africa, Southeast Asia and other countries that are members of the Non-Aligned Movement for its colonial past, bloody crimes, acts of genocide. But against this backdrop, France bans the Corsican language. France, mired in bloody crimes, does not accept the concept of ethnic minorities. Furthermore, he shows himself as a defender of the Armenian national minority in Azerbaijan.

The fact is that France is a country that openly supports Armenian separatism from the day it was founded in Azerbaijan. France should deal with its own problems rather than meddling in the internal affairs of other countries. Because today France's insidious plans regarding Azerbaijan have failed.

The successful domestic and foreign policy of President Ilham Aliyev has led to planned reconstruction works in our territories freed from occupation. In this sense, the Non-Aligned Movement must be fairly assertive, and double standards, and control the threat.

All this is important to strengthen friendship and relations between Azerbaijan and African countries. Always standing by the truth and justice, Azerbaijan is standing against the injustices happening in Africa!

# KHAZAR UNIVERSITY STUDENT'S ARTICLE PUBLISHED IN INTERNATIONAL JOURNAL OF THE CONGRESS OF AFRICAN JOURNALISTS

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Şahin Əliyevin "Əbədi Birlik" Gənclər İctimai Birliyinin sədri olaraq yazdığı məqalə Afrika Jurnalistlər Konqresi Beynəlxalq jurnalının mart nömrəsində dərc olunub.

O, məqalədə Yeni Kaledoniyada keçirilən aksiyada Azərbaycan Prezidenti İlham Əliyevin və "Dəmir yumruq" plakatlarının qaldırılmasının qürurverici olması, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan Prezidentinin Fransanın timsalında dünyada neokolonializm meyillərinin artmasından bəhs etməsi, Qəmər arxipelaqının Mayot adası, həmçinin Yeni Kaledoniya xalqlarının, o cüm-

The article authored by Shahin Aliyev, a student of Khazar University's School of Economics and Management, as the chairman of "Everlasting Unity" Youth Public Union, was published in the March edition of the International Journal of the Congress of African Journalists.

In the article, Shahin Aliyev discussed the presence of President Ilham Aliyev and "Iron Fist" posters at the action in New Caledonia. He also addressed President Aliyev's remarks during Azerbaijan's Non-Aligned Movement chairmanship, focusing on the global rise of neo-colonialism, exemplified by France.

lədən digər dənizaşırı icma və ərazilərdə yaşayan xalqların hüquqlarına və azadlıqlarına hörmət etməməsi mövzusundakı fikirlərini bölüşüb.

Qeyd edək ki, bu jurnal Afrika qitəsində yerləşən 30-dan artıq (Misir, Zimbabve, Tunis, Efiopiya, Nigeriya, Uqanda, Tanzaniya, Esvatini, Cənubi Afrika və s.) ölkədə nəşr olunmaqdadır.

Həmin məqaləni oxucularımıza təqdim edirik:

Additionally, he highlighted the lack of respect for the rights and freedoms of the peoples of Mayotte Island in the Qamar Archipelago, as well as those of New Caledonia and other overseas communities and territories.

Note that this journal is published in more than 30 countries on the African continent (Egypt, Zimbabwe, Tunisia, Ethiopia, Nigeria, Uganda, Tanzania, Eswatini, South Africa et c.).

"It is a matter of pride to raise the posters of President of Azerbaijan Ilham Aliyev and "Iron Fist" at the action in New Caledonia.

It should be emphasized that Azerbaijan attaches special importance to the development of cooperative relations and friendly relations with African states and the African Union, and supports the activities carried out by the countries of the continent for the sake of ensuring the sustainable development of African states. In this context, Azerbaijan's presidency of the Non-Aligned Movement, as well as humanitarian and developmental aid to African countries during the pandemic, 53 out of 54 African countries have benefited from our country's aid in different years.

Due to Azerbaijan's support for the granting of independence to French overseas territories, there are cases of waving the Azerbaijani flag in the actions for independence in New Caledonia. At the same time, on October 21, 2023, a meeting was held between the delegation of New Caledonia, including the Deputy General Secretary of the Caledonian Unity Party, David Vanabo, in the National Assembly.

Mr. President Ilham Aliyev spoke about the growth of neo-colonialism tendencies in the example of France, France does not respect the sovereignty of Mayotte Island of the Gamar Islands in the modern world, as well as the freedoms and liberties of the people of New Caledonia, as well as the people living in other overseas communities and territories. This country should apologize to Africa, Southeast Asia and other countries that are members of the Non-Aligned Movement for its colonial past, bloody crimes, acts of genocide. But against this backdrop, France bans the Corsican language. France, mired in bloody crimes, does not accept the concept of ethnic minorities. Furthermore, he shows himself as a defender of the Armenian national minority in Azerbaijan. The fact is that France is a country that openly supports Armenian separatism from the day it was founded in Azerbaijan. France should deal with its own problems rather than meddling in the internal affairs of other countries. Because today France's insidious plans regarding Azerbaijan have failed. The successful domestic and foreign policy of President Ilham Aliyev has led to planned reconstruction works in our territories freed from occupation. In this sense, the Non-Aligned Movement must be fairly assertive, end double standards, and control the threat.

All this is important to strengthen friendship and relations between Azerbaijan and African countries. Always standing by the truth and justice, Azerbaijan is standing against the injustices happening to Africa!"




# "XƏZƏR"İN TƏLƏBƏSİNİN BİRİNCİ MÜƏLLİFİ OLDUĞU "İLHAMLI ZƏFƏR-20" ADLI KİTAB NƏŞR EDİLİB

Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin IV kurs tələbəsi Şahin Əliyevin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinə həsr olunmuş "İlhamlı Zəfər-20" adlı kitabı "Ecoprint" nəşriyyatında çapdan çıxıb.

Kitaba Milli Məclisin deputatı, yazıçı-jurnalist Aqil Abbas rəy vermişdir, redaktoru *Amid TV.az* və *Yeni NeWsTv24.az* saytlarının rəhbəri, jurnalist Aygün Məmmədovadır. Milli Məclisin deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Çeyhun Məmmədov kitaba "Ön söz" yazmışdır.

Kitabın "İlham Əliyevin həyatı və siyasi karyerası", "Qarabağ Zəfəri", "İlham Əliyevin beynəlxalq münasibətlərdə rolu", "İlham Əliyevin Türk dünyasında rolu", "Azərbaycan – Qoşulmama hərəkatı: İlham Əliyev liderliyi və beynəlxalq ədalət" adlı fəsillərində, həmçinin təhsil, idman və gənclər siyasətindəki islahatlara həsr olunmuş bölümlərində Azərbaycan Prezidentinin çoxşaxəli uğurlu daxili və xarici fəaliyyətindən bəhs olunur.

Kitabın "Prezident İlham Əliyevlə bağlı yerli və xarici ictimaiyyət, siyasət, mədəniyyət nümayəndələrinin düşüncələri" adlı geniş icmal-fəslində Azərbaycan, Türkiyə, Şimali Kipr, Bolqarıstan, Qazaxıstan, Türkmənistan, Kərkük və Niderlandın dövlət, siyasət və mədəniyyət xadimlərinin yazıları verilmişdir. "Prezident İlham Əliyevə həsr olunan şeirlər" hissəsində Azərbaycan və Türkiyə şairlərinin şeirləri yerləşdirilmişdir.

Kitabdakı bölümlər fotoşəkillərlə müşayiət olunur. Kitab nəfis şəkildə çap edilmişdir.

# THE BOOK "VICTORY WITH ILHAM ALIYEV-20", THE FIRST AUTHOR OF WHICH IS KHAZAR UNIVERSITY STUDENT, PUBLISHED

The book "Victory with Ilham Aliyev-20" dedicated to the activities of the President of the Republic of Azerbaijan Ilham Aliyev by Shahin Aliyev, a fourth-year student of Khazar University's School of Economics and Management, has been published by "Ecoprint" publishing house. The book was reviewed by the member of the Milli Majlis, writer-journalist Agil Abbas, and the editor is the head of Amid TV.az and NeWsTv24 websites, journalist Aygun Mammadova. Cheyhun Mammadov, MP of the Milli Majlis, Doctor of Philosophy in Theology, wrote "Foreword" to the book.

In the chapters of the book entitled "Ilham Aliyev's life and political career", "Karabakh victory", "Ilham Aliyev's role in international relations", "Ilham Aliyev's role in the Turkish world", "Azerbaijan - Non-Aligned Movement: Ilham Aliyev's leadership and international justice", as well as , in the sections dedicated to reforms in education, sports and youth policy, the multifaceted successful domestic and foreign activities of the President of Azerbaijan are discussed. In the comprehensive overview chapter titled "Perspectives of Local and Foreign Public, Political, and Cultural Figures on President Ilham Aliyev," the book features insights from state, political, and cultural figures from Azerbaijan, Türkiye, Northern Cyprus, Bulgaria, Kazakhstan, Turkmenistan, Kirkuk, and the Netherlands. Poems of Azerbaijani and Turkish poets are featured in the "Poems dedicated to President Ilham Aliyev" section. Chapters in the book are accompanied by photographs.

The book is elegantly printed.

## "XƏZƏR"İN TƏLƏBƏSİ "UĞURLU AZƏRBAYCAN TƏLƏBƏLƏRİ" ENSİKLOPEDİYASINDA




Tələbə Təhsil Mərkəzi tərəfindən "Uğurlu Azərbaycan Tələbələri" ensiklopediyasının 1-ci cildi çap olunuşdur. Ensiklopediyaya daxil edilimş tələbələr arasında Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin IV kurs tələbəsi Əliyev Şahin Vüqar oğlu da yer almışdır. Ensiklopediyada onun təhsil aldığı dövrdə iştirak etdiyi təlimlər, konfranslar, təltif olunduğu sertifikatlar, mükafat, medallar və müəllifi olduğu kitablarla bağlı məlumat verilir.

Qeyd olunur ki, Gənc Vətənpərvərlər İctimai Birliyinin İctimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin müdiri vəzifəsində çalışmış Şahin Əliyev hazırda təsis etdiyi Əbədi Birlik Gənclər İctimai Birliyində sədr kimi öz fəaliyyətini davam etdirir. Eyni zamanda, Türkiyənin BZT Akademiyasının Azərbaycandakı nümayəndəliyinin idarə heyətinin üzvü, Qazaxıstanın Beynəlxalq Xalq Diplomatiyası Birliyinin gənclərlə iş üzrə nümayəndəsidir. Beynəlxalq İnformasiya Agentliyinin Türk dünyası üzrə müşaviri, BMT tərəfdaşı - Beynəlxalq İnsan Hüquqları Müdafiə Komitəsinin konsultantı seçilmişdir. Şəhid və qazi ailələrinə göstərdiyi diqqətə görə Patriots Awards mükafatçısıdır. I dərəcəli Hacı Zeynalabdin Tağıyev medalı və Ukraynanın Zaporoji kazaklarının medalı ilə təltif olunmuşdur. Bir çox ictimai-siyasi təşkilatların üzvü, tezis və layihə müəllifidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunmuş "İlhamlı Zəfər - 20" kitabının müəllifidir.

## KHAZAR UNIVERSITY STUDENT IN "SUCCESSFUL AZERBAIJAN STUDENTS" ENCYCLOPEDIA

The 1st volume of the encyclopedia "Successful Azerbaijan Students" was published by the Student Education Center. Among the students included in the encyclopedia, Sahin Vugar Aliyev, a fourth-year student of Khazar University's School of Economics and Management, was included. The encyclopedia provides information about the trainings, conferences, certificates, awards, medals and books he authored during his studies.

Note that Shahin Aliyev, who worked as the head of the Public Relations and Propaganda Department of the Young Patriots Public Union, continues his activities as the chairman of the Everlasting Union Youth Public Union, which he established. At the same time, he is a member of the board of the representative office of the BZT Academy of Türkiye in Azerbaijan, a representative of the International Union of People's Diplomacy of Kazakhstan on work with youth. He was selected as an adviser on the Turkic world of the International Information Agency, a consultant of the UN partner - the International Committee for the Protection of Human Rights. He is a Patriots Award winner for his attention to the families of martyrs and veterans. He was awarded the Haji Zeynalabdin Taghiyev medal of the first degree and the medal of the Zaporozhian Cossacks of Ukraine. Engaged in numerous social and political organizations, he is also an author of theses, projects and the book "Victory with Ilham Aliyev-20," dedicated to the President of the Republic of Azerbaijan, Ilham Aliyev.

# ZƏNCAN TİBB UNİVERSİTETİNİN PROFESSORU XƏZƏR UNİVERSİTETİNDƏ



*Saeed Kaboli*



# PROFESSOR OF ZANJAN MEDICAL UNIVERSITY AT KHAZAR UNIVERSITY

Martın 28-də Həyat elmləri departamentinin təşkilatçılığı ilə Zəncan Tibb Universitetinin (İran İslam Respublikası, Tehran) professoru Saeed Kaboli Xəzər Universitetinin Mərmər zalında keçirilən tədbirdə "CRISPR-Based Diagnostics: Challenges, Potentials and Applications" ("CRISPR Əsaslı Diaqnostika: Problemlər, Potensiallar və Tətbiqlər") adlı təlim proqramı ilə çıxış edib.

Mütəxəssis əvvəlcə CRISPR-Cas9 texnologiyası, onun yaranması, əhəmiyyəti və tətbiq sahələri barədə geniş məlumat verib. CRISPR-Cas9-un gen redaktəsində, müxtəlif infeksion xəstəliklərin diaqnozunda istifadəsi, crRNT-nin dizayn edilməsi, bioinformatik proqramlardan və məlumat bazalarından istifadə haqqında geniş bəhs edib.

Təlimə Xəzər Universitetinin professor-müəllim heyəti və tələbələri ilə yanaşı, müxtəlif elmi tədqiqat müəssisələrinin tədqiqatçıları da qatılıblar. Təlim interaktiv şəkildə keçirilib, tələbələri və tədqiqatçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

On March 28, Professor Saeed Kaboli of Zanjan Medical University (Islamic Republic of Iran, Tehran), organized by the Department of Life Sciences, delivered a training program titled " CRISPR-Based Diagnostics: Challenges, Potentials and Applications " at an event held in the Marble Hall of Khazar University. During the training, the specialist first provided comprehensive insights on CRISPR-Cas9 technology, its origin, importance and areas of application.

Later, detailed discussions ensued on CRISPR-Cas9's role in gene editing, diagnosing various infectious diseases, crRNA design, and utilization of bioinformatics programs and databases. Alongside Khazar University professors and students, researchers from various scientific institutions actively participated in the interactive training, where questions from students and researchers were elaborately addressed.

# TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ AZƏRİŞIQ ASC-NIN "YENİ YAŞMA" KÜLƏK ELEKTRİK PARKINDA

# STUDENTS OF THE SCHOOL OF SCIENCE AND ENGINEERING AT "YENI YASHMA" WIND POWER PARK OF AZERISHIQ OJSC

Martin 28-də Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri Cənubi Qafqazın ən böyük külək elektrik parkı olan "Azərişıq" ASC-nin "Yeni Yaşma" Külək Elektrik Parkında sahə gəzintisində olublar.

Xüsusi mentorların rəhbərliyi altında tələbələr külək enerjisi istehsalının incəliklərini, SƏTƏM təcrübələrini, külək turbinləri haqqında məlumatları öyrəniblər. Maraqlı müzakirələr və praktik fəaliyyətlər tələbələrin üfüqi oxlu külək turbinləri (HAWTs) və onların bərpa olunan enerji istehsalındakı əhəmiyyəti barədə biliklərini dərinləşdiriblər.

Ekskursiya zamanı təlim-tədris laboratoriyasında baş mühəndis Rasim Əliyev, mühəndislər Mehdi Vəliyev, İlkin Məmmədov, Arslan Məmmədov və texnik İman Süleymanzadə texniki avadanlıqlar və onların istifadə qaydaları barədə tələbələrə ətraflı məlumat veriblər.

Tələbələr dəstəyə və təcrübəyə görə "Yeni Yaşma" və "Azərişıq" ASC komandalarına öz təşəkkürlərini bildiriblər.

On March 28, under the organization of the Khazar University Career and Alumni Center, students of the School of Science Sciences and Engineering went on a field trip to "Yeni Yashma" Wind Power Park of Azerishiq OJSC, the largest wind power park in the South Caucasus. Under the guidance of special mentors, students learned the intricacies of wind energy production, HSE practices, information about wind turbines.

Engaging discussions and hands-on activities deepened students' knowledge of horizontal axis wind turbines (HAWTs) and their importance in renewable energy generation.

During the excursion, the students were informed about the technical equipment and the rules of their use from the chief engineer Rasim Aliyev, engineers Mehdi Valiyev, Ilkin Mammadov, Arslan Mammadov and technician Iman Suleymanzade in the training laboratory.

The students expressed their gratitude to "Yeni Yashma" and "Azerishiq" OJSC teams for their support and experience.






# XƏZƏR UNİVERSİTETİNDƏ "MÜBARİZ" FİLMİNİN TƏQDİMATI

# PRESENTATION OF THE FILM "MUBARIZ" AT KHAZAR UNIVERSITY

Martın 29-da Xəzər Universitetinin Mərmər salonunda Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş tammetrajlı "Mübariz" bədii filminin təqdimatı keçirildi. Tədbirdə universitetin əməkdaşları və tələbələr iştirak edirdilər.

AZTV tərəfindən Nicat Mənalının ssenarisi və baş prodüsserliyi (Munis Production şirkəti) ilə ərsəyə gətirilmiş filmin quruluşçu rejissoru

On March 29, the presentation of the full-length feature film "Mubariz" dedicated to the national hero of Azerbaijan, Mubariz Gurbanov, was held in the Marble Hall of Khazar University. University staff and students attended the event.

The film, produced by AZTV with Nicat Manali as the scriptwriter and chief producer from Munis Production company, was directed by Natig Novruzov. The role of



Natiq Novruzov, Mübariz İbrahimovu canlandıran baş rol ifaçısı isə Hüseyn Əliyevdir. Filmdə ana rolu istedadlı aktrisa Flora Hüseynovaya, ata obrazı isə Xalq artisti Şamil Süleymanova həvalə olunub.

Tədbiri universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açaraq, qeyd etdi ki, Mübariz İbrahimov Azərbaycan ictimaiyyətində xalq qəhrəmanına çevrilmişdir. Biləsuvarda onun adına küçə və məktəb var. Mübariz İbrahimovu təsvir edən heykəllər ucaldılmış, onun şərəfinə xatirə lövhələri hazırlanmış, filmlər çəkilmiş, haqqında kitab yazılmış və xarici teleseriallarda bəhs edilmişdir. Lakin məhz bu gün təqdimatı olan filmdə onun uşaqlıq dövründən tutmuş sonuncu döyüşünü də əhatə edən hadisələrdən bəhs olunur.



*Əlövsət Əmirbəyli*

Munis Production-un nümyəndəsi Emin Yaqubzadə filmin hazırlanması prosesindəki maraqlı məqamlardan danışaraq, qeyd edib ki, çəkilişlər qəhrəmanın doğulduğu doğma Biləsuvar rayonunda və ata evində, döyüşüb şəhadətə qovuşduğu Tərtər rayonunda yerləşən hərbi mövqedə aparılıb.




*Emin Yaqubzadə*

Sonra film nümayiş olunub. Dərin təəssürat doğuran film tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Mubariz Ibrahimov was portrayed by Huseyn Aliyev, while Flora Huseynova played the role of his mother, and People's Artist Shamil Suleymanov played his father.

Alovsat Amirbeyli, director of Public Relations and Media of the university, opened the event and noted that Mubariz Ibrahimov has become a national hero in the Azerbaijani community. He mentioned the various tributes to Mubariz Ibrahimov, such as streets and schools named after him in Bilasuvar, statues erected, commemorative plaques, books, and mentions in foreign TV series. However, the film, which was released today, talks about the events from his childhood to his last battle.

The representative of Munis Production, Emin Yagubzadeh, spoke about the interesting moments on the film's production process, and noted that the filming was done in the native Bilasuvar district, where the hero was born, and in his father's house, in a military position located in the Tartar district, where he fought and was martyred. Then the film was shown. The audience warmly applauded the film, deeply moved by its impact.

# "XƏZƏR"İN KOMANDASI "SMART SOLUTİONS" İNKUBASİYA PROQRAMININ QALİBİDİR




**1-ci yer - ECWA-Express connection with an ambulance device:**
*Afət Əhmədova, Aişə Bəşirli, Şəfa Yusifova, münsif Orxan Əhməd*

# KHAZAR TEAM IS THE WINNER OF "SMART SOLUTIONS" INCUBATION PROGRAM

Martın 30-da Xəzər Universiteti İnkişaf Mərkəzinin təşkilatçılığı ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən maliyyələşdirilən "Smart Solutions" inkubasiya proqramının final tədbiri keçirilib.

Tədbiri Xəzər Universiteti İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva açaraq, layihə haqqında qısa məlumat verib və hər kəsə uğurlar arzulayıb.

İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov çıxış edərək, startapların gənclər üçün əhəmiyyətindən bəhs edib.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin əməkdaşı Nigar Abdullayeva çıxışında 6 aylıq proqramın uğurla yekunlaşmasını qeyd edib və layihə meneceri Məhin Cəbrayilovaya, eləcə də layihə koordinatoru Səbinə Quluyevaya təşəkkürünü bildirib. Sonra o, gənclər üçün İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin yaratdığı imkanlardan və gənclərin bu proqramlara qoşulmasının vacibliyindən danışıb.

Tədbirin növbəti hissəsində bütün komandalar öz

On March 30, the final event of the "Smart Solutions" incubation program, funded by the Innovation and Digital Development Agency under the Ministry of Digital Development and Transport, was organized by Khazar University Development Center.

Raziya Isayeva, head of the Khazar University Development Center, opened the event, gave brief information about the project and wished everyone success.

Then, the dean of the School of Economics and Management, Jeyhun Mammadov, made a speech and talked about the importance of startups for young people. Nigar Abdullayeva, a staff member of the Innovation and Digital Development Agency, acknowledged the successful completion of the 6-month program in her speech, expressing gratitude to project manager Mahin Jabrayilova and project coordinator Sabina Guluyeva. She also underscored the opportunities provided by the Innovation and Digital Development Agency for youth involvement in such programs.

ideyalarını təqdim ediblər və münsiflər heyətinin suallarını cavablandırıblar.

Fasilədən sonra qalib komandalar müəyyənləşdirilib:

**1-ci yer - ECWA-Express connection with an ambulance device**

Xəzər Universitetinin Kimya - Biologiya müəllimliyi ixtisasının sonuncu kurs tələbələri : Afət Əhmədova, Şəfa Yusifova, Aişə Bəşirli birinci yerin qalibləri olaraq 3000 manat mükafatla təltif olunmuşlar.

**2-ci yer - Medappoint-Medical appointment app**

Xəzər Universitetinin Kompüter Sistemlərinin və Şəbəkələrinin Proqramı Təminatı ixtisasında təhsil alan magistratura tələbələri: Yusif Oruclu, Uğur Hüseynli, Fatimə Əlizadə və Bakı Dövlət Universitetinin Jurnalistika ixtisasının üçüncü kurs tələbəsi Röya Yusifbəyli ikinci yerin qalibləri olaraq 2000 manat mükafatla təltif olunmuşlar.

**3-cü yer - Eagleeye- Mine Detecting drones**

Bakı Avrasiya Universitetinin IT ixtisasında təhsil alan Əli Şixəli, Elcan Hüseynzadə və Azərbaycan Fransız Universitetinin Neft-Qaz mühəndisliyi ixtisasında təhsil alan Nihad Əliyev üçüncü yerin qalibləri olaraq 1000 manat mükafatla təltif olunmuşlar.

Qaliblərə mükafat təqdim edilib.

In the next part of the event, all teams presented their ideas and answered the jury's questions.

After the break, the winning teams were determined:

**1st place - ECWA-Express connection with an ambulance device**

Afat Ahmadova, Shafa Yusifova, and Aisha Bashirli, senior students majoring in Chemistry-Biology at Khazar University, were awarded 3,000 Manats as first-place winners.

**2nd place - Medappoint-Medical appointment app**

Yusif Oruclu, Ugur Huseynli, Fatima Alizadeh, and Roya Yusifbeyli, who are master's degree students studying Computer Systems and Networks at Khazar University, along with Roya Yusifbeyli, a third-year Journalism student at Baku State University, received a 2000 manat prize as the second-place winners.

**3rd place - Eagleeye- Mine Detecting drones**

Ali Shikhali and Eljan Huseynzade, who are studying IT at Baku Eurasia University, along with Nihad Aliyev, who is studying Oil and Gas Engineering at the French-Azerbaijani University, received a 1000 manat prize as the third-place winners.

Prizes were presented to the winners.




**2-ci yer - Medappoint-Medical appointment app:** *Uğur Hüseynli,Yusif Oruclu, münsif Nigar Abdullayeva, Röya Yusifbəyli,Fatimə Əlizadə*

# TARİXÇİ TƏLƏBƏLƏR EKSKURSİYADA
# EXCURSION OF HISTORY STUDENTS TO THE CASTLES

Martın 31-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin tarix müəllimliyi ixtisasının ikinci kurs tələbələri "Müharibələr tarixi" fənninə aid olan "Azərbaycanın müdafiə tikililəri" mövzusu ilə bağlı AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Arxeoloji abidələrin toplusu şöbəsi" və Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Atəşgah məbədi, Dördkünc Mərdəkan qalası, Dairəvi Mərdəkan qalası və Ramana qalası abidələrində tədris ekskursiyasında olublar.

AMEA əməkdaşları Dos. Mikayıl Mustafayev, Nərminə Hüseynova, Orxan Zamanov və tələbələrin təşəbbüsü ilə təşkil olunan xüsusi tədris ekskursiyası müdafiə memarlığının vacib tərkib hissəsi olan Bakıətrafı qalaların Azərbaycan xalqının hərb tarixindəki mühüm rolunun əyani qavranılması baxımından əhəmiyyətli idi.

İlk olaraq "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisinə səfər edildi. Bələdçi

On March 31, second-year students of the School of Humanities, Education, and Social Sciences of Khazar University majoring in History Education embarked on an educational excursion to explore several historical monuments in Azerbaijan. These sites included the "Ateshgah Temple," " Quadrangular Mardakan Castle," "Round Mardakan Castle," and "Ramana Castle," all pertaining to the theme of "Defense buildings of Azerbaijan" within the context of the "History of Wars" subject. The excursion was organized jointly by the Department of Collection of Archaeological Monuments at the ANAS Institute of Archaeology and Anthropology and the Department of History and Archaeology at Khazar University. A special academic excursion organized at the initiative of the employees of the Azerbaijan National Academy of Sciences (ANAS) Assoc. Prof. Mikayil Mustafayev, Narmina Huseynova, Orkhan Zamanov and students was important in terms of visual perception of the important role of the fortresses around Baku, which are an important component of Azerbaijan's defense architecture,





abidə ərazisindəki tarixi tikililəri və eksponatları əyani şəkildə göstərərək, tələbələri ətraflı məlumatlandırdı.

Sonra Mərdəkan və Ramana qalalarına maraqlı ekskursiya başlandı.

Dördkünc qalanın ziyarəti zamanı Mərdəkanın ağsaqqalarından biri olan Vidadi Yaptumov tələbələrə Mərdəkan tarixi, burada olan tikililər, Dördkünc Mərdəkan qalası və Dairəvi Mərdəkan qalası haqqında məlumat verdi.

Mərdəkandakı ikinci Dairəvi qala ərazisi də ziyarət edildi.

Sonda, tələbələr qədim tarixə malik olan Ramana kəndinə səfər edərək, Ramana qalasını da ziyarət etdilər. Bələdçi tələbələrə ərazinin və qalanın tarixi haqqında geniş məlumat verdi.

Tədris ekskursiyası zamanı fənn müəllimi O. Zamanov və orta əsr mütəxəsisləri M.Mustafayev, N.Hüseynova tələbələrə sözügedən qalaların tədqiqi, nə məqsədlə istifadə olunması və onların ölkənin tarixində yeri haqqında ətraflı danışdılar və onlarla başqa Azərbaycan qalaları barədə geniş diskussiya aparıldı.

Ekskursiya müzakirə və sorğularla yekunlaşdı.

in the military history of our people.

The first stop on the visit was the "Ateshgah Temple" State Historical-Architectural Reserve. Here, the guide led the students through the monument area, showcasing its historical buildings and exhibits while providing detailed explanations. Following this, the main part of the excursion unfolded with visits to the Mardakan and Ramana fortresses. At the Quadrangular Castle, Vidadi Yaptumov, an elder from Mardakan, informed the students about the area's history and the structures present, including the " Quadrangular Mardakan Castle" and "Round Mardakan Castle." The second Round Castle area in Mardakan was also visited. In the end, the students visited the ancient village of Ramana and "Ramana Castle". Here, the guide provided extensive historical information about the area and the fortress. During the educational excursion, subject teacher O. Zamanov, along with medieval specialists M. Mustafayev and N. Huseynova, provided detailed explanations to the students about the castles, their historical significance, and their roles in our country's history. They engaged in extensive discussions with the students about other Azerbaijani castles as well. The excursion concluded with discussions and inquiries.



**Humay Hüseynova**

## HEKAYƏLƏR

# NİŞAN ÜZÜYÜ

Kisənin dibində qalmış bir-iki ovuc una kartof qatıb, çörək bişirdiyi üç gün olmuşdu. -Sabah külfət nə yeyəcək,- deyə, qara-qara düşünür, işin içindən çıxa bilmirdi. Səhərin açılmağına az qalmış yatağın içində vurnuxmaqdan yorulub, yuxuya getmişdi.

Sərçə balaları kimi ağızlarını açıb yatağın yanını kəsdirən üç uşaq paltarını didişdirəndə oyandı. Gözlərini açar-açmaz qanı qaraldı. Ağır-ağır durub əynini geyindi, üzünü yudu. Sonra süfrəni qurdu. Belə çətin anlarda qayınatası həmişə "Allah kərimdir", "O var, rəhmi də var" deyirdi. Bu sözlərin nəsə sirli gücümü vardı, yoxsa təsəlli üçün deyirdimi, bunu bilmirdi. Uşaqlar eşitməsin deyə, pıçıltı ilə bu sözləri deyib süfrəni qurmağa başladı. Çay gətirdi. Dünəndən qalmış quru çörək tikələrinin üstünə şor çəkib, hər uşağa bir tikə verdi. Özü yavan çay içə-içə düşüncələrə daldı.

Evdə satılası bir xalça, bir də nişan üzüyü vardı. Xalça cehizliyindən qalan tək yadigar, nişan üzüyü isə xoşbəxt olduğu günlərin xatirəsi idi. Qərar vermək çox çətin idi. Sonda üzüyü satmağı seçdi. Köhnə xalça kimə lazım idi?

Barmağına taxmağa belə qıymadığı üzüyü dəsmala bükub üstünü toz basmış, içi bomboş sandığın dibində gizlətmişdi. Yaylığının ucu ilə gözündən axan iri damlaları silə-silə sandığın qapağını qaldırdı. Atası evindən çıxanda sandığın qapağı bağlanmırdı. Nələr yox idi içində?! Ürəyinin başı göynəyə-göynəyə bir ah çəkib, üzüyü bükdüyü dəsmalı çıxardı. Ehmallıca, sanki dəsmalı tumarlayaraq açdı, üzüyü çıxardı. Son dəfə barmağına taxıb baxdı, ağladı, ağladı... Üzüyün əldən çıxmasınamı ağlayırdı? Yoxsa on doqquz yaşında ayaq basdığı bu evin uğursuzluğunamı ağlayırdı?

Uşaqlar gəlib görər deyə, ürəkdolusu ağlaya da bilmirdi. Tələsik üz-gözünü silib, otaqdan çıxdı. Artırmada oturub siqaret tüstüsündə oturan ərinə yaxınlaşdı. Heç nə demədən üzüyü ərinin ovcuna qoyduqdan sonra göz-gözə gəlməmək üçün tez otağa qayıtdı. Ovcunun içindəki şeyin üzük olduğunu kəsdirmək onun bir neçə dəqiqəsini aldı. İllər öncə bu üzüyü ala bilmək üçün nələr etdiyini, üzüyü arvadının barmağına taxanda "nə olur-olsun heç vaxt barmağından çıxarma" deyə möhkəm-möhkəm tapşırdığını, "ölsəm də çıxarmaram" deyən arvadının sevincli səsini xatırladı. Üzüyü cibinə atdı.

Boş siqaret qutusunu əlində əzib həyətə düşdü.

Həyət qapısını çırpıb getdiyi vaxtdan üç, ya dörd saat keçmişdi ki, əri bir kisə un və

bir kisə ərzaqla qayıtdı. Əlindəkiləri mətbəxə qoyub, yenidən çıxıb getdi. Gedərkən oğrun-oğrun arvadının pəncərəsinə baxdı. Arvadı isə bu davranışı gözlədiyindən tez pərdənin arxasına çəkildi. Bundan sonrakı ömürləri beləcə keçəcəkdi. Bir-birinə baxmağa üzləri olmayan ömür-gün yoldaşları kimi...

İyirmi il keçdi. Bir vaxtlar anasının əlinə baxan uşaqlar indi analarına baxırdılar. Hərəsi bir universitet bitirmiş, iş-güc sahibi olmuşdular. Bir vaxtlar boş qalan sandığı indi uşaqlarının diplomları doldururdu. Bir vaxtlar uşaqlarının üzünə baxmağa utanan ana indi başıuca gəzirdi.

Belə günlərin birində böyük oğlu böyük şəhərdən əlində kiçik bir qutu ilə gəldi. Uzun müddətdir oğlunu görməyən ana ürəyi dağa döndü. Sevindi, kövrəldi, fərəhləndi.

Axşam hamı öz yerinə çəkiləndən sonra oğul utana-utana anasının yanına gəlib dedi:

-Ana, sənə kiçik hədiyyəm var. Bəlkə sənin üçün artıq əhəmiyyətsiz bir şeydir, amma iyirmi il əvvəl şahid olduğum o səhnə mənə rahatlıq vermirdi. Axır ki bunu geri aldım.

Bunu deyib əlindəki qutunu anasına uzatdı.

Heç nə anlamayan ana qutunu götürüb açdı. İçində nişan üzüyünü görəndə bədənindən bir gizilti keçdi, özündən ixtiyarsız gözündən süzülən yaşlar üzünü yandırmağa başlayanda ayıldı. Nə deyəcəyini bilmədən maddım-maddım oğluna baxdı. Nəhayət dilləndi:

-Axı sən... Sən hardan bilirsən? O vaxt cəmi beş yaşın vardı...

Sözünün dalını gətirə bilmədi.

Oğlu cavab verdi:

-Boş sandığın başında ağladığını da, o üzüyə görə illərlə atamdan gözlərini qaçırdığını da bilirəm, ana. Hələ onda özümə söz vermişdim ki, o üzüyü qaytaracağam.

Bunu deyib, anasını öpdü. Dönüb otağına getdi.

Ovcunda üzüyü bərk-bərk sıxmış ana nə qədər beləcə oturdu, nə qədər səssiz göz yaşı tökdü. İyirmi il sonra nişan üzüyü geri qayıtmışdı...

# DİLƏNÇİ

Yayın ortaları idi. Eyvanda süfrə sərib oturmuşduq. Nənəmin bişirdiyi çığırtmanı yeyib, çay gözləyirdik. Nənəm altına qab-qazan yığdığı, üstündə neft plitəsində yemək bişirdiyi, qab-qacaq yuduğu stolun üstündə qabları yumağa başladı. Nənəmin bir xasiyyəti vardı: yeməyini yeyib qurtaran kimi boşqabı qabağından götürürdü. Elə bil ki, tikələrini sayırdı, son tikəni ağzına qoyub udanacan boşqab artıq yuyulmuş olurdu.

Anam çay gətirdi. Yeməkdən sonra çay içməyi babam çox sevirdi. Ay gəlin, bir çay ver, ağzımı yusun - deyirdi. Çayı həmişə "lumulu konfet"lə içərdi. Özü də yarım konfetlə. Qəndqabında mütləq yarısı yeyilmiş konfetlər olardı. Amma konfeti heç vaxt dişi ilə kəsməzdi. Əllə toxunmadan, kağızlı halda ortadan bölər, yarısını bizə uzadıb deyərdi: bax, ağzım dəyməyib haa... Ya da "kim istəyir götürsün" deyib, qəndqabına qoyardı. Bu bizə - beş, altı yaşlı uşaqlara qəribə gələrdi. - Ay baba, bir balaca konfet nə olan şeydi ki, onun da yarısı ilə içirsən? - Paydan artıq yemək olmaz, mən payımı bilirəm - deyirdi.

Babamdan çəkinsək də, onu çox sevirdik, çay içəndə, yemək yeyəndə, ümumiyyətlə, nəsə iş görəndə diqqətlə onu izləyər, gözümüzü ondan çəkməzdik.

Babamla şirin-şirin danışıb güləndə darvaza döyüldü. Döyənin yad olduğunu hamımız anladıq. Qohumlar, qonşular belə inamsız qapı döymürlər, hamı ərklə döyür. Bu nəsə başqa cür döymək idi. Babam qardaşıma dedi: dur aç qapını, xeyir olsun İnşallah.

Qardaşım yüyürüb qapını açdı. Gələn dilənçi idi. Bizim tərəflərdə dilənçi nadir hallarda görünürdü. Ortayaşlı bir qadın həyətə daxil oldu, üzünə baxan kimi ac, yorğun olduğu bilinirdi. Belindəki yükünü həyətin ortasına atıb, salaməleyküm - dedi.

Babam ayağa qalxdı, qadının salamını alıb başı ilə anama, nənəmə işarə elədi ki,

qadınla məşğul olsunlar. Anam hər zaman yaşmaqda olduğu üçün babama cavab vermədi, başını təsdiq mənasında aşağı-yuxarı hərəkət etdirib nənəmə baxdı. Son qərarı qayınanası verəcəkdi. Nənəmin narazı olduğu üzündən bilinirdi. - Qonaq Allah qonağıdır, bəri gəl ay bacı, deyib, anama üzünü tutdu: ay qız, çaydan - çörəkdən gətir. Anam bir stəkan çay süzdü, dalınca qalan çığırtmanı qızdırıb, qonağın qabağına qoydu. Qadın, deyəsən, çox ac idi, əvvəl yeməyi yedi, boşqabı tərtəmiz sıyırdı, üstündən çayı içdi. Sonra özünə gəlib, həyətə göz gəzdirməyə başladı. Həyətdə nənəmin min bir əziyyətlə böyütdüyü ətli toyuqlar özlərini burcuda-burcuda gəzir, eyvanın altında fırlanırdılar, nənəm əlinə düşəni onlara verirdi. Dilənçi qadın toyuqlara baxdı, üzünü nənəmə tutub dedi: - bu toyuqlardan birini tut ver mənə, gedim. Nənəm diksindi, elə bil balasını əlindən alırdılar. Bilmədi nə desin. Könülsüz-könülsüz bizə dedi ki, durun, toyuqlardan birini tutun. Biz toyuqlarla qaçdı-tutdu oynayan zaman babam dilənçiyə pul verdi, anama tapşırdı ki, qadının çantasına evdə olan ayın-oyundan qoysun. Biz toyuqların arxasında bir neçə dəqiqə qaçsaq da, tuta bilmirdik. Nənəm əlinə fürsət düşmüş kimi dedi: - qismətin deyil, deyəsən, ay bacı, dur get.

Dilənçi ağzını açmadan durub getdi. Beş dəqiqə keçməmişdi ki, qonşunun həyətindən toyuq-cücə səsləri gəldi. Hamımız anladıq nə olduğunu. Kənddə heç kimin sevmədiyi qadın dilənçiyə toyuq verilmişdi.

Babam nənəmə dedi ki, bu heç yaxşı olmadı, gərək verəydin. Dilənçinin ahı pis tutur adamı.

Bu sözləri nənəm qulaqardına vurdu.

Axşamtərəfi idi. Mal-qara çöldən qayıdırdı. Bir də gördük ki, göyün üzü qara buludlarla doludur. Yayın ortasında bu nə yağışdı - nənəm, deyəsən, öz-özünə danışırdı. Babam az qala pıçıltı ilə dedi: hələ bu harasıdı? Söz babamın ağzından çıxıb qurtarmamış leysan başladı. Allahın bizə qəzəbləndiyi açıq-aşkar idi, leysan elə möhkəm yağırdı ki, damcılar az qala adama batırdı. Leysandan sonra nənəmin bostanından əsər qalmadı. Göyərtilər, tərəvəzlər yerə yapışmışdı. Toyuq-cücə pilləkənin altına doluşmuşdu.

Babam çox fikirli idi, sanki yenə nəsə olacağını gözləyirdi. Amma heç nə olmadı.

Artıq yatmaq vaxtı idi. Hamı yerinə çəkildi. Gecənin bir vaxtı oyananda anamın gəlinlik şkafındakı qablar hamısı çilik-çilik olub üstümüzə tökülmüşdü. Biz yuxulu-yuxulu nə olduğunu kəsdirə bilmirdik. Atam bir tərəfdən bizi sakitləşdirir, bir tərəfdən nə olduğunu anlamağa çalışırdı. Bu vaxt babam gecə paltarında qapını açıb içəri girdi, qorxmayın, zəlzələdi, - dedi. Çölə çıxın.

Biz hamımız eyvana çıxdıq. Gündüz dilənçinin oturduğu eyvana. Babam pıçıltı ilə təkrarlayırdı: Allah var, rəhmi də var, Allah var, rəhmi də var. Dəfələrlə bunu deyib, mənasını anlamadığım dualar oxuyurdu. Bacım, qardaşım və mən isə babamın öyrətdiyi kimi salavat çevirib, "amin" deyirdik.

Bu bir neçə dəqiqəlik zəlzələ bizə əsr kimi uzun gəlmişdi. Zəlzələ dayanan kimi biz ağlamağa başladıq. Babam bizi qucaqlayıb, sakitləşdirib, yatağa apardı. - Bu olmalı idi, bala, O kişi ah götürməz – deyib, üzümüzdən öpüb getdi.

Zəlzələnin dağıtdığı həyət-bacanı qaydasına salmaq bir neçə gün çəkdi. O gecə nə baş verdiyini fikirləşəndə yadıma düşdü ki, nənəm həmin vaxt ağzını da açmadı. Nə onda, nə də ondan sonra bu haqda heç nə demədi.

Biz özümüzə gələndən sonra babam bizi başına yığıb dedi: - Bir toyuğun başımıza nə gətirdiyini gördünüzmü? Bu sizə ibrət olsun. Allahın sizə verdiyi ruzini Allahın dilənçisinə verməkdən çəkinməyin.

Deyəsən, nənəm də bu sözləri eşitdi.

O hadisənin üstündən illər keçib, dəfələrlə zəlzələ olub, amma o gecəki kimi uzun və vahiməli zəlzələ bir də heç vaxt görmədim...

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ *"CASPIAN JOURNAL OF MATHEMATICAL SCIENCES"* JURNALINDA




Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "On the solution of conformable fractional heat conduction equation" ("Uyğun fraksiyalı istilik keçirmə tənliyinin həlli haqqında") adlı birinci müəllifi olduğu məqalə "*Caspian Journal of Mathematical Sciences*" (2023, Cild 12, № 2) jurnalında dərc olunub. Qeyd edək ki, "*Caspian Journal of Mathematical Sciences*" jurnalı MathSciNet (Mathematical Reviews) və Zentralblatt MATH bazalarında indekslənib.

Məqalədə uyğun fraksiyalı istilik keçirmə təhliyi tədqiq edilir. Bu məsələyə dəyişənlərin ayrılması metodunu tətbiq etməklə, uyğun fraksiyalı Şturm-Liuvill məsələsi əldə edilir. Daha sonra məxsusi qiymətlər və məxsusi funksiyaların hesabi çoxluqda olduğu göstərilir. Nəhayət, məxsusi funksiyalar üzrə ayrılışın (sıranın) müntəzəm yığıldığı isbat edilir.

## ARTICLE OF THE PROFESSOR OF MATHEMATICS DEPARTMENT IN *"CASPIAN JOURNAL OF MATHEMATICAL SCIENCES"*

The article entitled "On the solution of conformable fractional heat conduction equation", the first author of which is Bilander Allahverdiyev, professor of the Khazar University Department of Mathematics, was published in the "*Caspian Journal of Mathematical Sciences*" (2023, Vol. 12, No. 2). Note that "*Caspian Journal of Mathematical Sciences*" is indexed in MathSciNet (Mathematical Reviews) and Zentralblatt MATH databases.

The article studies a conformable fractional heat conduction equation. Applying the method of separation variables to this problem, we get a conformable fractional Sturm-Liouville eigenvalue problem. Later, we prove the existence of a countably infinite set of eigenvalues and eigenfunctions. Finally, we establish uniformly convergent expansions in the eigenfunctions.

*https://cjms.journals.umz.ac.ir/issue_756_787.html*

## PSİXOLOGİYA DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ *"JOURNAL OF AWARENESS"* JURNALINDA

## ARTICLE BY DEPARTMENT OF PSYCHOLOGY LECTURER PUBLISED IN *"JOURNAL OF AWARENESS"*

Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi, geriatrik psixologiya üzrə fəlsəfə doktoru Gülşən Əliyevanın müəllifi olduğu "Yaşlı əhalinin psixi sağlamlığının və həyat keyfiyyətinin yaxşılaşdırılması" adlı məqaləsi "*Journal of Awareness*" jurnalında (2024, cild 9, № 1, səh. 191-200) dərc edilib.

Humanitar və sosial elmlər üzrə Avropa istinad indeksi olan "*Journal of Awareness*" 2016-cı ildə nəşr olunmağa başlayan beynəlxalq əhəmiyyətli jurnaldır. Bu jurnal humanitar elmlərin yüksək keyfiyyətli nəzəri və tətbiqi məqalələrinin nəşrini nəzərdə tutur. Məqalədə əsas məqsəd Azərbaycanda yaşlı əhali üzrə tədqiqat apararaq, qocalmanın psixoloji aspektlərini təsvir etməkdir.

Tədqiqatın nəticələrinə görə, əksər demoqrafik kateqoriyalar üzrə depressiya dərəcələri və ailə dəstəyi olub-olmayan iştirakçılar arasında depressiya əlamətlərinin nəticələri üzrə əhəmiyyətli fərqlərin olduğu müəyyən edilib.

Gulshan Aliyeva, Ph.D. in geriatric psychology and lecturer at Khazar University's Psychology Department, authored an article titled "Improving mental health and quality of life of aging population", which was published in "*Journal of Awareness*" (2024, vol. 9, no. 1, p. 191-200).

The "*Journal of Awareness*" is a significant European reference index for humanities and social sciences, established in 2016. It serves as an internationally recognized platform for publishing high-quality theoretical and applied articles in humanities. The primary objective of the article is to explore the psychological dimensions of aging through research conducted on the elderly population in Azerbaijan.

The study's findings revealed notable disparities in depression symptom scores among participants with and without family support across various demographic categories.

*https://journals.gen.tr/index.php/joa/article/view/2285*



# SERQEY YESENİN

## ŞEİRLƏR

**“ İRAN NƏĞMƏLƏRİ” SİLSİLƏSİNDƏN**




### MƏNİM GÖZƏL ŞAHANƏM

*("Шаганэ, ты моя, Шаганэ...")*

Mənim gözəl Şahanəm, Şahanə gülüm mənim!
Şimallı olduğuma doğmasan yoxsa belə?!
Zəngin səhralarıyla məşhurdur elim mənim,
Bənzəyir ay nurunda üzən zəmi məşələ;
Mənim gözəl Şahanəm,Şahanə gülüm mənim.

Şimallı olduğuma doğmasan yoxsa belə,
Orda ay burdakından böyükdür neçə dəfə.
Şiraz çox füsunkardır, ancaq mən yenə hələ
Uçmağa tam hazıram Ryazanım tərəfə;
Şimallı olduğuma doğmasan yoxsa belə?!

Zəngin səhralarıyla məşhurdur elim mənim,
Bənzəyir zəmiləri qızılı saçlarına,
Dola barmaqlarıma, ağrımaz əlim mənim,
Vurğunam öz yurdumun yaşıl yamaclarına;
Cənnət məkanı ilə məşhurdur elim mənim.

Bənzəyir ay nurunda üzən zəmi gözələ,
Qıvrım saçlarıma bax, telimdən tanı məni,
Zarafat et, gülümsə, düşməz bu anlar ələ,
Salma ancaq yadıma, salma gülüm, Vətəni;
Bənzəyir ay nurunda üzən zəmi gözələ.

Mənim gözəl Şahanəm, Şahanə gülüm mənim!
Şimalda, o diyarda sənə bənzər qız da var,
Tanrım, insan insana bu qədər necə oxşar!
Bəlkə də mənim haqda düşünür o gözəl yar,
Mənim gözəl Şahanəm, Şahanə gülüm mənim!

## SƏRRAFDAN SORDUM BU GÜN

(*"Я спросил сегодня у менялы"*)

A sərraf,yarım tümən?
Neçə manat eyləyər?
Açımmı qəlbimi mən
Fars gözəli laləyə?

Bu gün yenə də sordum,
Öyrətsin məni deyə:
-Necə başa salım mən
Öpüş sözün Laləyə?

Sığmırdım yerə, göyə,
Sıxılırdı ürəyim.
Necə deyim Laləyə
Sənsən mənim gərəyim?!

Dinlədi gülə - gülə -
Sərraf hal əhli idi.
Dedi: qızı söz ilə
Ələ almaq çətindi.

Öpüşün yoxdur adı,
Dodaqda qalmır izi.
Tanrı belə yaradıb -
Gül ətri verir özü.

Kim eşqə əbəs deyər?
Sevinci, kədəri var.
"Mənimsən" o kəs deyər...
Çəkər, çadranı atar.





## OLMAMIŞAM BOSFORDA MƏN

*("Никогда я не был на Босфоре...")*

Bosforda heç olmamışam,
Ordan mənə vermə sual.
Heykələ dönüb qalmışam
Mavi gözlər önündə lal.

Bağdada da getməmişəm
Tacir karvanlarıyla mən.
Orda alver etməmişəm,
Düşmüşəm ancaq taqətdən.

Fikirdən yordum dözümü -
Əbədi nə var dünyada? -
Axır ki tapdım özümü;
-Mən şairəm Rusiyada!

Sızıldadır qarmon səsi,
İtlər hürür üzü aya,
Fars gözəli,var həvəsin?
Gedək o mavi dünyaya!

Hüzuruna gəldim, yarım,
Çağırdın eşq ünvanına,
Sənin zərif barmaqların
Döndü durna qanadına.

Qoy unudum keçmişimi,
Rahatlıq hopdur qanıma.
Yoxdur ölkə ölkən kimi,
And içirəm bu canıma.

Unutdur qarmon avazın,
Dadım bu gül nəfəsindən.
Yolumu gözləyən qızın
Qaçmayım görüşünə mən.

Bosforda olmadım, xeyr,
Uydurram bir şey... istəsən;
O gözlər necə kükrəyir!..
Ruhuma od püskürürsən.

## QÖVR ELƏMİR KÖHNƏ YARAM

*("Улеглась моя былая рана")*

Qövr eləmir köhnə yaram,
Sancı qopmur ürəyimdən.
Udub mavi çiçəklərin
Ətrini, məst oluram mən.

Tehranda bir çayxanada
Çayçı pürrəngi çay verdi.
Araqla, çaxırla deyil,
Bu çayla sağaldı dərdim.

Ağa, ətirli çayını,
Qoy tez-tez içməyə gəlim.
Çadra altdan burda mənə
Baxır bir İran gözəli.

Bizdə qızlar azaddırlar,
Azaddır sevgiləri də.
Bizdə görüş könüllüdür,
Bal dadır öpüşləri də.

Nə gözəldir bu ay üzlü,
Cana gəldim, inan, mən də.
Xorasan şalı verərdim,
Şiraz xalçası üstündə.

Süz, ağa, süz o bal çaydan,
Dilim yalan satmaz sənə;
Mən özümə cavabdeham,
Sənsə cavabdeh özünə.

Çox boylanma bağçaya da,
Başqa qapısı var yenə.
Əbəs yerə göz vurmurdu
Çadra altdan o qız mənə.



## DEYİRDİN Kİ, SƏDİ...

*("Ты сказала, что Саади...")*

Təəccüblü nə var?- Sən
Onun zövqünə bir bax!
Gözəli sinəsindən
Öpürmüş Sədi ancaq.

Oxudun:-"Fərat üçün
Gözəldir gül gözəldən".
Mən isə həyat üçün,
Oxuyardım əzəldən.

Gözəlsə də qızılgül,
Ona çox gözəl demə.
Sözlərimi eşit, bil,
Yoxdur tay Şahanəmə.



Ruhum var, azad quşam,
Bezdim boş adətlərdən;
Mən şair doğulmuşam,
Şairtək öpürəm mən.

*Tərcümə:*
**Valeh Mirzə**



*Rəsmlər İsaxan İsaxanlının tərtibçi, redaktor və məqalələrin müəllifi olduğu "Serqey Yesenin. İran nəğmələri" kitabından götürülmüşdür. Rəssam: Afaq Kərimova*




# YUXU

(*novella*)

Bu gecə yuxuma rəhmətlik qolçomaq Kərbəlayi ilə Abasqulu bəy girmişdi. Kərbəlayi ağzından od püskürürdü:
- Hanı bəs sənin Şura hökumətin, Abasqulu bəy?- deyirdi. Mal-qaramı, taxılımı, pulumu əlimdən alıb payladınız qara camaata, dediniz hamı bərabər yaşamalıdır. Dağlarda, bayquş yuvalarında da məni rahat buraxmırdı qurduğunuz o Şura hökuməti. İndi necədir səninçün, bəy?! Mən sənə onda demədimmi ki, bu hökumət gec-tez dağılacaq, yenə mənim kimi qolçomaqlar peyda olacaqlar?! Bəs bunların xalqdan taladığı sərvət nə vaxt əllərindən alınacaq, bəy? Deyəsən, düz sözüm sənin də məzarını titrədir axı!

Abasqulu bəy dərindən köks ötürüb ona deyirdi:

-Hökumətlə heç kim hökumətlik edə bilməz. Bu gün səninkimilərə qarşı qanunlar daha sərtdir, Kərbəlayi. Hövsələni bir az da bas, hər şeyi sənin də, mənim də ruhumuz hiss edəcək. İndi bambaşqa zamandır, dostum. Şura hökuməti iflasa uğramalıydı, uğradı da. Biz artıq özümüz öz ölkəmizin yiyəsiyik, kiminsə müstəmləkəsi deyilik! Bugünkü qolçomaqların aqibəti sizdən qat-qat ağır olacaq, bəy! Bir azca da döz...

-A bəy, heç olmasa bunu etsəydilər, gorum çatlamazdı, rahat yatardım cəhənnəm oduna qərq olan bu qəbir evimdə...



*Rəssam Məmmədov İskəndər*
*Memarlıq və Dizayn Departamenti*

# Qurd və quzu

(*Krılova nəzirə*)

Acgöz qurd meşədə qarına qəltan etdiyi ceyranı iştahla həzmi - rabedən keçirəndən sonra güclə, təngnəfəs halda özünü çatdırır çaya ki, mədəsindəkiləri həzm etmək üçün doyunca su içsin. Köklükdən gözləri ayaqlarının altını güclə seçən qurd bir də görür ki, çayın qırağında bir arıq, çəlimsiz quzu zarıldayır. Tox olduğundan əvvəlcə o, quzuya zərrəcə diqqət yetirmir və ceyranın qanının rəngini alan dodaqları ilə başlayır bumbuz çayın bal dadan suyundan bala-bala sümürməyə. Doyunca içəndən sonra başını qaldırır və görür ki, quzu özünü saxlaya bilməyib, taqətsiz halda sərilib çayın qırağına. Öz-özünə - kök olsaydı, nə çəkərdim dişimə bu südəməri!-deyərək, qurd donquldana-donquldana çəlimsiz halda uzanan quzuya yaxınlaşaraq deyir:

- Nə gündəsən, ay bədbəxt?! Sənə baxanda lap ağzımın dadı qaçır. Elə bil ki, bu ölkədə aclıqdır, sən də bu ac ölkənin ac-yalavacı.

Ağzından od püskürən acgöz qurdun tənəli sözləri quzunu lap bezdirir və son dəfə var gücünü toplayaraq titrək səslə mələyir və qurdun düz gözünün içinə məzlum-məzlum baxaraq quzu dilində deyir:

- Sən ömrün boyu kefi kök, damağı çağ olmusan. Dişlərini nahaq yerə korlama, bir dəriyəm, bir sümük, onsuz da nə qarnın doyacaq, nə də nəfsin...



*Rəssam Həsənağa Ədalətoğlu*
*Memarlıq və Dizayn Departamenti*

# "HİN AXTARAN TÜLKÜ"

(*felyeton əvəzi*)

Əslində yuxu görmək insanı xoş ovqata kökləyir.Ancaq yuxu görəsən də, daha ilan-qurbağa yox. Bəzən gerçəkdə çata bilmədiyin arzulara belə yuxuda çatırsan, ayılmağına peşman olursan, nə qədər gözlərini yumursan ki, həmin yuxunun davamını görəsən, tərslikdən bu, çox vaxt baş vermir və qalırsan yorğanın altında qıvrıla-qıvrıla. Bir də var gerçəkdə ağlına belə gəlməyən yuxu. Bax, bu, heç də ürəkaçan olmur. Əlqərəz, bu günlərdə gördüyüm arzuolunmaz bir yuxunu nəql eləyirəm sizə, ancaq yozması sizlikdir ha!..

...Elə təzəcə yuxuya getmişdim ki, gördüm kəndimizdə meşə ətəyindəki yamacda tək-tənha istirahət edirəm. Ancaq kənddəki dil bilən itimiz yanımdadır. Çox ağıllı itdir. Ağacların altına tökülən quru odun parçalarını dişlərinə alıb gətirir, mən də yavaş-yavaş samovarı alışdırmağa çalışıram. Birdən itə nə oldusa, bərkdən hürdüyünü, kimisə sanki əsir alıbmış kimi qabağına qatıb hüzuruma gətirdiyini gördüm. Əcaib bir məxluqa oxşayırdı. Arabir geri dönüb itə dişlərini qıcıdır, əcaib səslər çıxarır, sanki öz dilində ona nəsə deyirdi. Mən ayağa qalxdım ki, dəvət olunmamış qonağın kim olduğunu aydın



*Rəssam Məmmədov İskəndər*
*Memarlıq və Dizayn Departamenti*

görüm. İnanın ki, gözlərimə inanmadım. Uzaqdan əcaib bir məxluqa bənzətdiyim bu canlı kim olsaydı yaxşıydı?! Sən demə, itimin əsir götürdüyü, üz-gözünü meşədəki kol-kosun cırıq-cırıq elədiyi insan imiş. Üst-başı it günündə olduğundan kimliyini tapmaq mümkün deyildi. Nə qədər çalışdımsa, heç kimə oxşada bilmədim. Birdən naməlum adam özü dilə gəldi və Azərbaycan dilində danışmağa başladı:

-Mən Makronam da!

Çaşqınlıq içində gözlərimi döyməyə başladım, necə yəni Makron?- deyə, düşündüm. Makron hara, bizim meşəmiz hara?! Fransa hara, Azərbaycan hara?! Nə isə, o, mənim təəccübümü hiss etdiyindən qaynayan samovarın yanında dirsəklənərək, cibindən bir yaylıq çıxardıb, üz-gözünün palçığını silə-silə dedi: -Məni bura vicdanım gətirib, daha doğrusu, olmayan vicdanım. Şəxsi təyyarəmi minib Azərbaycanın bir guşəsində paraşütdən tullanmağı qərara aldım ki, sizin insanlarla görüşüb dərdimi onlara deyim. Təbiətiniz nə gözəldir! İtiniz də xoşuma gəldi. O, məni qapmadan qabağına qatıb, sizin hüzurunuza gətirdi. Əgər bu, bir erməni iti olsaydı, leşimi qurd-quşa yem edərdi.

Mən tez samovardan bir stəkan pürrəngi çay süzüb ona uzadaraq,- için, özünüzə gəlin,- söylədim .O, bu səxavətimdən kövrəlibmiş kimi titrək səslə dilləndi: -Məni öz ölkəmdə rahat yaşamağa qoymurlar bu əclaflar. Qələt eləyib prezident olmadım ki! Mənim ikinci dəfə prezident seçkilərinə qatılmaq fikrim belə yox idi. Erməni lobbisinin atamanları mənimlə görüşüb təkid etdilər ki, hökmən prezident olmalıyam, çünki onlar bunu belə istəyirlər. Prezident seçiləntək isə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə nail olmalı idim. Mənim ən böyük səhvim onların bu ağlasığmaz təklifləri ilə razılaşmağım oldu. Azərbaycan çox hümanist addımlar atdı, dəfələrlə Ermənistan rəhbərliyinə təklif etdi ki, gəl, qan tökülmədən sülh sazişini imzalayaq. Paşinyan heyvərə isə bu dəfə rusa yox, gizli sövdələşməyə görə mənə arxalanıb münaqişəni daha da qızışdırdı. Və günlərin bir günü Ermənistan ordusu sizin Tovuz rayonunuz istiqamətindən hücuma keçdi. Dünyada analoqu olmayan müharibə oldu bu. Çox səriştəli və praqmatik sərkərdəniz var. Vətən Müharibəniz davam edən ərəfədə o, vaxt tapıb dünyanın bütün ölkələrinin mətbuat nümayəndələrini də qəbul edib dinləyir, Qərb, o cümlədən Avropa jurnalistlərinin iyrənc suallarına müdrikcəsinə cavablar verib yerlərinə otuzdururdu.

...Danışdıqca, Makronun ağzından köpük daşır, sanki son nəfəsini alırdı. Erməni lobbisinə verdiyi sözə istəsə də əməl edə bilməyəcəyini də çox gözəl bilirdi. Mən təmkinlə dəvətsiz qonağı dinlədikdən sonra ona bircə sualla müraciət etdim:

- Bəs sən bizim haqq işimizi əngəlləmək məqsədilə Ermənistanı niyə görə yenidən silahlandırırsan? Çox gözəl də bilirsən ki, bu dəfə biz müharibə etsək, Ermənistan dövləti Fransanın boş torpaqlarında bərqərar olacaq və tarixi torpaqlarımız tam şəkildə azad olunacaq. Niyə onlara yazığınız gəlmir?!

- Onları yazıq ilan vursun! Mən Fransadakı erməni lobbisini aldadaraq, döyüş arsenalına yararlı olmayan silahlarımı verirəm ki, onlar da ürəklənib sizinlə müharibə etsinlər və nəticədə Azərbaycan ordusu onları tarixin səhnəsindən ümumiyyətlə birdəfəlik silsin. Amma bunun müqabilində bilirəm ki, siz onları məhv edəndən sonra Fransadakı erməni lobbisi məni "Eyfel" qülləsindən asacaq. İnanın, ki onlar buna qadirdirlər.

Makron sözünü qurtarar-qurtarmaz ağıllı itim ona tərəf çönüb üç dəfə acıqlı şəkildə hürdü. Makron diksinərək lap yazıq görkəmi aldı və dili tutar-tutmaz məndən soruşdu:

-Ser, o niyə üç dəfə hürdü?

- Hin axtaran tülküsən - deyir,-söylədim.

**Valeh Mirzə**



## DÜNYANIN ƏN TƏHLÜKƏSİZ ÖLKƏLƏRİNİN ADLARI AÇIQLANIB
### *AZƏRBAYCAN NEÇƏNCİ YERDƏDİR?*

ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında "Dünyanın ən təhlükəsiz ölkələri hansılardır?" sərlövhəli məqalə dərc edilib.

Tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham`ın müəllifi olduğu məqalədə Qlobal Terrorizm İndeksinə (QTİ) görə Azərbaycanın dünyanın ən təhlükəsiz ölkələrindən biri kimi 141 ölkə arasında 18-ci yerdə qərarlaşdığı göstərilib. Qlobal Terrorizm İndeksi (GTI) dünya əhalisinin 99,7 faizini əhatə edən terrorizmin təsirini təhlil edən hərtərəfli araşdırmadır. Burada terror hadisələrinin sayı, terrordan qaynaqlanan ölüm halları, terrorla mübarizə, terrorla bağlı aparılan araşdırmaların effektivliyi və bir çox digər göstəricilər nəzərə alınır. GTI hesabatı İqtisadiyyat və Sülh İnstitutu (IEP) tərəfindən Dragonfly's TerrorismTracker verilənlər bazasından və digər mənbələrdən istifadə etməklə hazırlanır.

Azərbaycan da cinayətkarlıq səviyyəsinə görə dünyanın ən təhlükəsiz 20 ölkəsi siyahısına daxil edilib. Reytinq ölkə və şəhərlər üzrə dünyanın ən böyük statistik məlumat bazasına malik olan "Numbea" resursu tərəfindən hazırlanıb. Sorğu zamanı sakinlərdən gecə saatlarında şəhərdə tək gəzə bilib-bilmədikləri, polisin işindən razı olub-olmamaları, son 12 ayda hücuma və ya soyğuna məruz qalıb-qalmadıqları soruşulub.

Müəllif Azərbaycanı sinaqoqların qapılarının gün ərzində açıq qaldığı nadir ölkələrdən biri kimi xarakterizə edərək, Ermənistanla münaqişəli vəziyyətə rəğmən Bakının mərkəzində erməni kilsəsinin mühafizə olunduğuna diqqət çəkib və Prezident İlham Əliyevin "Bu gün Azərbaycan təhlükəsizlik adasıdır" ifadəsinin gerçək olduğunu vurğulayıb.

***https://moderator.az/az/dunya/753373/dunyanin-en-tehlukesiz-lkelerinin-adlari-aciqlanibazerbaycan-necenci-yerdedir/***

***30.03.2024***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin, Bakı, Sumqayıt və Gəncə "Dünya" məktəblərinin kollektivləri Xəzər Universitetinin prorektoru İsaxan İsaxanlıya anası

**Güləndam İsayevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi